www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 noyabr 2016-cı il Cümə axşamı № 261 (6582) Qiymәti 60 qәpik

**Xəbər**

## Satışda zəhərli oyuncaqlar var!

yazısı səh.14-də

**Gündəm**

### Ziya Məmmədov sükutu pozdu



"Yeni Müsavat"a danışan nəqliyyat naziri "Tramp əmimoğlu deyil, mənim bir prezidentim var, o da ölkəmin prezidentidir" dedi

yazısı səh.2-də

### Dövlət qurumlarındakı cinayətkar şəbəkələr və kriminal jarqonlar...

yazısı səh.10-da

### Zərərçəkmiş məhkəmədə Akif Çovdarova verdiyi brilyantlardan danışdı

yazısı səh.3-də

### "Müsavat 2013-də Cəmil Həsənlinin arxasında durmasaydı..." - əyalət müsavatçısı

yazısı səh.4-də

### Ölkə siyasətinin episentri niyə daha parlament deyil?

yazısı səh.5-də

### Ailə büdcəsinə necə qənaət etməli-ekspert məsləhəti

yazısı səh.4-də

### Ölkədə mənzil bazarı çökür

yazısı səh.10-da

*Sərdar Cəlaloğlu:*

### "Dünyada demokratiya tənəzzülə uğrayır"

yazısı səh.11-də

### "Sahibkarlar büdcəyə 101 milyon cərimə ödəməlidir"

yazısı səh.10-da

### Harada gəldi namaz qılmaq düzgündürmü?

yazısı səh.12-də

### 155 manatla minimum yaşamaq mümkündürmü...

yazısı səh.15-də

### Türkiyə və Qərb arasında "sular nədən durulmur"...

yazısı səh.11-də

## Qarabağ böhranı: Ankara-Moskva böhranından əvvəl və sonra

# AZƏRBAYCAN ÖZÜNÜ YENİ MÜHARİBƏYƏ HAZIRLAYIR - SÜLH İMKANLARI TƏZƏDƏN BASDIRILDI

Bu gün Rusiya ilə Türkiyənin arasını vuran "Su-24" insidentindən bir il ötür - ötən ilin əsas yekunu; **politoloq:** "Bakı Pakistan, İsrail, Türkiyə və Ukrayna hesabına Ermənistan üzərində hərbi üstünlüyü yenidən təmin edəcək..."




yazısı səh.7-də

## Eldar Əzizov bələdiyyə və oliqarxlarla torpaq davasına çıxdı

Səbayelin icra başçısı rayon ərazisində satılmış torpaqları yenidən satmaq istəyir; İH Badamdarda torpaq alan məmurların adını açıqlayacağını bəyan etdi

yazısı səh.5-də



### "Məni bir müxalifət lideri satdı" - Eynulla Fətullayevdən sensasion açıqlamalar

yazısı səh. 8 və 9-da



*Əflatun Amaşov:*

### "İranla gediş-gəlişin asanlaşdırılmasına ehtiyac var"

yazısı səh.6-da



Azər Süleymanov

### Gürcüstan parlamentindəki azərbaycanlı deputatdan ilginc açıqlamalar

yazısı səh.13-də



## “Azərbaycan beynəlxalq tədbirlərin keçirilməsində kifayət qədər təcrübəyə malikdir”

**Prezident İlham Əliyev Beynəlxalq Kanoe Federasiyasının prezidenti Xose Perurena Lopezi və Avropa Kanoe Federasiyasının prezidenti Albert Vudsu qəbul edib.**

APA-nın məlumatına görə, Beynəlxalq Kanoe Federasiyasının prezidenti Xose Perurena Lopez rəhbərlik etdiyi qurumun Konqresinin Azərbaycanda keçirilməsinin önəmini qeyd edərək bu tədbirə 90-a yaxın ölkədən nümayəndələrin qatılacağını bildirib.

O, yaradılan şəraitin və bütün idman obyektlərinin yüksək səviyyədə olduğunu məmnunluqla vurğulayıb. Qonaq, ümumiyyətlə, Azərbaycanda beynəlxalq tədbirlərin, o cümlədən “Formula-1" yarışının çox yaxşı təşkilinin dünyada maraqla izlənildiyini deyib.

Prezident İlham Əliyev ölkəmizin beynəlxalq tədbirlərin keçirilməsində kifayət qədər təcrübəyə malik olduğunu qeyd edib. Dövlət başçısı bu il Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş Yay Olimpiya Oyunlarında idmançılarımızın kanoe idman növündə ilk dəfə medallar qazandıqlarını məmnunluqla qeyd edib və bildirib ki, bu nailiyyət gələcəkdə idmanın bu növünə marağın artmasına gətirib çıxaracaq.

Görüşdə Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığa böyük töhfə verdiyi qeyd olunub.

## Bakıda kütləvi dava düşüb, polis mayoru bıçaqlanıb

**Bakıda kafedə oğurluq etmək istəyən şəxslər polis mayorunu bıçaqlayıb. “Report”un hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, hadisə ötən gecə Nərimanov rayonu Heydər Əliyev prospektində yerləşən kafedə baş verib.**

Belə ki, 1979-cu il təvəllüdlü Abdullayev Namiq Aydın oğlu tanışı 1974-cü il təvəllüdlü Cəbrayılov Arif Etibar oğlu və 1985-ci il təvəllüdlü Məsimov Kamil Zakir oğlu, adları açıqlanmayan iki qadınla birlikdə kafedə əyləşib.

Bu zaman kafeyə daxil olan İsmayıllı rayon sakini Əhmədyar Məhərrəmov qadınlardan birinə məxsus telefonu oğurlayaraq qaçmaq istəyib. Bunu görən N.Abdullayev onun arxasınca qaçıb və iaşə obyektinin çıxışında Ə.Məhərrəmovun qolundan tutub. Nəticədə onlar arasında əlbəyaxa dava düşüb. Ə.Məhərrəmovu küçədə gözləyən həlelik adı bilinməyən tanışı da davaya qoşulub və N.Abdullayevi döyüb.

Bu münaqişəyə A.Cəbrayılov və K.Məsimov da qarışıb. Nəticədə Ə.Məhərrəmov və adı istintaqa məlum olmayan şəxs bıçaq çıxararaq N.Abdullayevə, A.Cəbrayılova və K.Məsimova bıçaq xəsarətləri yetirərək ərazidən qaçıblar.

Ağır xəsarət alan hər üç şəxs Təcili yardım maşını ilə 1 saylı Şəhər Klinik Xəstəxanasına çatdırılıb. N.Abdullayev və A.Cəbrayılovun vəziyyəti ağır qiymətləndirilir.

Faktla bağlı Nərimanov Rayon Polis İdarəsinin 16-cı polis bölməsində cinayət işi başlanılıb. Araşdırmalar zamanı Ə.Məhərrəmov saxlanılıb. Digər şəxsin axtarışlarına başlanılıb.

Qeyd edək ki, N.Abdullayev Xəzər Rayon Polis İdarəsinin 2-ci polis bölməsinin növbətçi hissəsində mayor rütbəsi ilə fəaliyyət göstərir. Hadisə vaxtı o xidmətdə olub.


### “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**


# Ziya Məmmədov sükutu pozdu

### “Yeni Müsavat”a danışan nəqliyyat naziri “Tramp əmimoğlu deyil, mənim bir prezidentim var, o da ölkəmin prezidentidir” dedi

**ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın gələn il yanvarın 20-də keçirilməsi nəzərdə tutulan inauqurasiya mərasimində kimlərin iştirak edəcəyi barədə müzakirələr gedir.**



“"Amerika-Azərbaycan" Alyansının sədri, nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın inauqurasiya mərasiminə dəvət olunub". Bu xəbəri “Qafqazinfo” yayıb. Məlumata görə, iş adamı andiçmə mərasimində iştirak etmək üçün yanvarın 20-də bu ölkədə səfərdə olacaq.

Qeyd edək ki, biznesmen Anar Məmmədovun Donald Trampla işbirliyinin olması haqda Azərbaycan mətbuatında dəfələrə məlumatlar dərc olunub. O, eyni zamanda Bakının Xətai rayonu ərazisində yerləşən “Tramp” adlı böyük bir plaza da inşa etdirib.

ABŞ-ın yeni prezidentinin adı elan olunandan sonra nəqliyyat naziri və onun oğlunun Tramp ailəsi ilə əlaqələrindən çox yazılıb. Bütün bunlarla əlaqədar, həmçinin inauqurasiyaya dəvət mövzusu ilə bağlı xəbərlərə aydınlıq gətirmək üçün nəqliyyat nazirinə müraciət etdik. Gün ərzində dəfələrlə göstərdiyimiz cəhdlərin yekununda cənab Ziya Məmmədovla şəxsən danışa bildik.

Sualımızı dinləyən nazir **“Yeni Müsavat”a bunları bildirdi:** “Bu xəbərləri hardan alırsınız, bilmirəm. Mənim xəbərim yoxdur. Mən o xəbərlərlə məşğul deyiləm. Heç bir dəvət də olmayıb. Tramp mənim əmim oğlu deyil, dayım oğlu deyil. Mənim bir prezidentim var, o da ölkəmin prezidentidir. Xahiş edirəm, belə şeylərlə bağlı məni narahat etməyin”.

❑ **Elşad PAŞASOY**



## Deputat “Lider TV”dəki işindən çıxarılıb

### Sahib Alıyevin işdə qalmaq üçün cəhdi nəticəsiz qalıb

**Milli Məclisin deputatı, məşhur telejurnalist, siyasi şərhçi Sahib Alıyev uzun illərdir çalışdığı “Lider” telekanalından çıxarılıb. Bu barədə “Lider TV”-dəki mənbə “Yeni Müsavat”a məlumat verib. Xəbərdə bildirilir ki, Sahib Alıyevin işdən çıxarılmasını rəhbərlik maliyyə poblemlərinin yaranması ilə əsaslandırıb. İllərdir efirə öyrəşən və efirdən uzaq düşməsini heç cür qəbul edə bilməyən Sahib Alıyevin işdə saxlanması üçün çox cəhdlər etdiyi, hətta maaşsız işləməyə razı olduğu deyilir. Buna baxmayaraq, telekanal rəhbərliyi qərarını dəyişməyib. Mənbənin dediyinə görə, S.Alıyevin hətta maaşdan imtina etməsinin vəziyyəti onun xeyirinə dəyişməməsi onun işdən çıxarılmasında başqa hansısa səbəbin olduğunu söyləməyə əsas verir.**

Məlumatla bağlı Sahib Alıyevin özünə müraciət etsək də heç bir cavab əldə etmək mümkün olmadı.

Qeyd edək ki, Sahib Alıyev 10 ildən artıqdır “Lider TV”nin siyasi icmalçısıdır. Son illərdə o, “Lider TV”də efirə gedən “Səda-Həftə” proqramını aparıb. Siyasi şərhlərində iqtidarın mövqeyinin qatı müdafiəçisi, müxalifətin isə əleyhdarı kimi çıxışları ilə seçilib.

2010-cu ildə Milli Məclisə keçirilən seçkilərə bitərəf olaraq 95 saylı Tərtər seçki dairəsindən qatılıb və deputat mandatı qazanıb. 2015-ci ildə keçirilən parlament seçkilərində də eyni dairədən bitərəf namizəd kimi seçkiyə qatılıb. Bitərəf kimi seçkiyə qatılmasına baxmayaraq hakimiyyət məhz onu müdafiə edib. Sahib Alıyev ikinci dəfə deputat mandatı əldə edib bilib. 2010-cu ildən Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü olsa da Sahib Alıyev əvvəlki peşəsindən-siyasi icmalçı və jurnalistlik-dən kənara çəkilməyib.

❑ **E.SEYİDAĞA**




## Gənc xanəndələrin konserti olacaq

**Dekabr ayının 8-də gənc xanəndələr, 3-cü və 4-cü muğam televiziya müsabiqələrinin qalibləri Nigar Şabanova və Ramiq Bayramov Azərbaycan Dövlət Filarmoniyasında geniş konsert proqramı ilə çıxış edəcəklər.**

“Gənclərə dəstək” adlı layihə çərçivəsində baş tutacaq konsert proqramı Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə reallaşacaq. Xanəndələri Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin kiçik heyəti müşayiət edəcək.

Xatırladaq ki, bədii rəhbər xalq artisti Ağaverdi Paşayev, konsertmeyster əməkdar artist Sahib Paşazadədir.

## Marsda göl tapıldı

**NASA Marsda ABŞ-ın ən böyük gölü - Yuxarı göl böyüklüyündə olan nəhəng buz kütləsi aşkarlandığını açıqlayıb.**

Axar.az xəbər verir ki, ABŞ Geofizika Birliyinin verdiyi hesabatına görə, buz kütləsi planetin Utopiya Planitia bölgəsində yerləşir, sahəsi isə 375 min kvadrat kilometrdir.

Kəşf kosmik gəminin radarı vasitəsilə təsbit olunub.

NASA bu tapıntının Marsın tarixi və gələcəkdə ehtimal edilən su qaynaqlarının tapılması baxımından son dərəcə vacib olduğunu açıqlayıb.

## Televiziya əməkdaşlarının maaşlarının verilməsi niyə gecikir?

**“Xəzər”, “Lider”, “Space” və “ARB Şəki” telekanallarının əməkdaşlarının bəziləri son 1, bəziləri 2, bəziləri isə 3 aydır maaş almırlar. Bu barədə Meydan TV məlumat yayıb. Məlumatda bildirilir ki, “ARB Şəki” televiziyasında çalışan əməkdaşının sözlərinə görə, işçilərin 70 faizinin əmək haqqı ödənilmir. “Xəzər TV” əməkdaşları isə bildiriblər ki, telekanalda avqust ayının maaşını ala bilməyən işçilər var:**

“Bəzi işçilərə verilməli olan pullar müxtəlif bəhanələrlə ya gecikdirilir, ya da azaldılaraq verilir. Noyabr olmasına baxmayaraq, əksəriyyət sentyabr və oktyabrın maaşlarını almayıb”.

“Lider TV”də də sentyabr, oktyabr aylarının maaşlarının verilmədiyi bildirilir:

“İşçilərə söz verilir, amma əməl edilmir. Hamı gözləyə-gözləyə qalıb. Bəzi xüsusi ştatlara pul verilir, vəssalam”. “Space TV” əməkdaşları isə bildirirlər ki, kanalda maaşların 3 ay gecikmə ilə verilməsi adi hala çevrilib:

“Şirkətin yarısı hələ avqustun pulunu ala bilməyib. Digər kanallarda da oxşar vəziyyətdir. Məlumatlara görə, bir çox TV əməkdaşları özlərinə yeni iş taparaq televiziyadan gedirlər”.

**Mövzuya aydınlıq gətirmək üçün adıçəkilən telekanallarla əlaqə saxladıq. “ARB TV”nin strateji inkişaf və media direktoru İsmayıl Həsənov yayılan xəbərlərin əsassız olduğunu bildirdi:**

“Televiziyanın maaşla bağlı heç bir problemi yoxdur. Yalnız ötən ay maaşların verilməsində 5-10 gün gecikmə oldu. Bu da ölkənin ən böyük banklarından biri olan "Bank Standart"ın bağlanması ilə bağlı idi, bizim bank hesablarımız orda idi. Bağlanan bankdan yeni banka transfer edənə qədər əlbəttə ki, müəyyən sənədləşmələr lazım oldu və bir neçə gün gecikmə oldu. Başqa heç bir gecikmədən söz gedə bilməz. Yayılan həmin məlumatlar yanlışdır və belə bir məsələ yoxdur".

**“Space” TV-nin icraçı direktoru Kamil Şahverdi isə bəzi gecikmələr olduğunu bildirdi və bunun səbəblərini açıqladı:**

“Elə şey olar ki, bir-iki ay maaş verilməsin? Yalnız 3-5 gün, bir həftə və yaxud 10 gün gecikə bilir. Bu gecikmələr də bizdən asılı olmayan səbəblərdən baş verir. Ona görə ki, büdcə təşkilatı deyilik, reklama görə pul alırıq. Gəlirimiz ancaq reklamdan olur. Bizə pul daxil olan kimi əmək haqları verilir. Aylarla gecikmələr olduğu boş söhbətlərdir. Digər işçilərin rəhbər işçilərdən sonra maaş aldığına gəldikdə isə əslində rəhbər işçilərinin maaşları gecikir, çünki onlar digər əməkdaşlardan sonra maaş alırlar”.

“Lider TV” şirkətindən də yayılan məlumatların yalan olduğu, işçilərin maaşlarını vaxtlı-vaxtında, hətta bəzi vaxtlarda vaxtından əvvəl aldıqları bildirildi.

“Xəzər TV”də maaşla bağlı vəziyyətin necəliyini öyrənməyə çalışsaq da cəhdlərimiz boşa çıxdı.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 161 (6582) 24 noyabr 2016

**Ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə noyabrın 23-də növbəti məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, Sabunçu Rayon Məhkəməsində davam edən proses yenə də jurnalistlərin iştirakı olmadan baş tutub. Məhkəmə prosesinin qapalı olması ilə bağlı qərar verilməsə də, jurnalistlərin iştirakına yaradılan problemin səbəbi göstərilmir. Məhkəmə prosesinə sədrlik edən Həbib Həsənov da bu barədə jurnalistlərin sualını cavablandırmaq istəmir.**

# Zərərçəkmiş məhkəmədə Akif Çovdarova verdiyi brilyantlardan danışdı

## "Doqquz ədəd 1 karatlıq, bir ədəd isə 3 karatlıq brilyantı Çovdarovun özünə vermişəm; Eldar Mahmudov üçün isə 2 ədəd 4 karatlıq, 1 ədəd isə 5 karatlıq brilyant gətirmişəm"

Digər bir məqam isə başda Akif Çovdarov olmaqla, digər təqsirləndirilən şəxslərin mövqeyi ilə bağlıdır. Belə ki, Çovdarov və digərləri onlara qarşı irəli sürülmüş ittihamlarla özlərini təqsirli bilmədiklərini, günahsız olduqlarını dedikləri halda media nümayəndələrinin prosesdə iştirakında maraqlı deyillər. Bu səbəbdən 4 sabiq MTN əməkdaşının vəkilləri məhkəmə prosesinin açıq, media nümayəndələrinin iştirakı ilə keçirilməsi üçün heç bir təşəbbüs irəli sürmür, məhkəməyə bununla bağlı vəsatət və ya müraciət ünvanlamırlar. Bu da yəqin ki, təqsirləndirilən şəxslərin şəxsi maraqlarından irəli gəlir...

Noyabrın 23-də baş tutan proses barədə Akif Çovdarovun vəkili Şahin Rəfiyev fasilə zamanı musavat.com-a məlumat verib.

Vəkil deyib ki, prosesdə vəsatət qaldıraraq cinayət işinə xitam verilməsini istəyib. Digər bir vəsatət isə Çovdarovun saxlanıldığı təcridxanada vəkilləri ilə görüşünə şərait yaradılmaması ilə bağlı olub.

Ş.Rəfiyev deyib ki, məhkəmə vəsatətləri baxılmamış saxlayıb.

Vəkil əlavə edib ki, məhkəmədə zərərçəkmiş kimi tanınan Şahmar Qurbanov ifadə verib, prokuror və vəkillərin suallarını cavablandırıb.

Ş.Rəfiyev deyir ki, zərərçəkmiş şəxs suallarının əksəriyyətinə "xatırlamıram" və "mənə aidiyyəti yoxdur" cavablarını verib. Vəkil zərəçəkmişin onlara qarşı aqressiv cavab verdiyini də söyləyib. Ş.Rəfiyev bildirib ki, Şahmar Qurbanov ölkəyə qanunsuz yolla qızıl gətirdiyini etiraf edib.

O qeyd edib ki, Akif Çovdarova 500 min dollar və brilyant verdiyini deyən Şahmar Qurbanov pulun məbləğini və brilyantın miqdarını xatırlasa da, nə zaman və harada verməsini xatırlamadığını söyləyib.

Zərərçəkmiş Şahmar Qurbanov da fasilədə musavat.com-a açıqlama verib. O, prosesdə Akif Çovdarovun vəkillərinin ona iş üzrə aidiyyəti olmayan suallar verdiyini deyib.

**Zərərçəkmiş Akif Çovdarova nağd şəkildə 500 min dollar verdiyini söyləyib. MTN əməkdaşları tərəfindən saxlanıldıqdan sonra tanışlarından bu məbləği aldığını deyən Ş.Qurbanov əlavə olaraq Çovdarov və sabiq nazir Eldar Mahmudov üçün brilyant gətirdiyini də söyləyib:** "Doqquz ədəd 1 karatlıq, bir ədəd isə 3 karatlıq brilyantı Çovdarovun özünə vermişəm. Eldar Mahmudov üçün isə 2 ədəd 4 karatlıq, 1 ədəd isə 5 karatlıq brilyant gətirmişəm. Çovdarov dedi ki, "Eldar Mahmudova çatacaq"".


Akif Çovdarov

O qeyd edib ki, Mahmudov və Çovdarova verdiyi brilyantların ümumi dəyəri 300 min dollar olub.

**Zərərçəkmiş pulu və brilyantı harada və nə vaxt verməsini xatırlamamasını belə izah edib:** "Adamın bir ay əvvəl yediyi yadından çıxır. Necə xatırlaya bilərəm? Neçə il keçib bu işdən".

Prosesdə zərərçəkmişlə Çovdarovun vəkilləri arasında sual-cavab ərəfəsində gərginlik yaşanıb.

Qeyd edək ki, məhkəmə prosesində fasilə verilməsinə səbəb Çovdarovun səhhətinin pisləşməsi olub. Nəfəs almaqda çətinlik çəkdiyini deyən Çovdarov həkimlər tərəfindən müayinə edilib.

Akif Çovdarovun məhkəməsi günün ikinci yarısında davam etdirilib.

Prosesdə şahid qismində "Riyad" Mühafizə Xidmətinin rəisi Etibar Qasımov ifadə verib. O, istintaqa ifadəsini təsdiqlədiyini söyləyib.

Məhkəmədən sonra Akif Çovdarovun vəkili Kamandar Nəsibov musavat.com-a deyib ki, jurnalistlərin prosesdə iştirakına icazə verilməsi üçün məhkəməyə vəsatət təqdim ediblər. Lakin vəsatət təmin edilməyib.

Məhkəmə prosesində digər şahid İsgəndər Hüseynov ifadə verib. O, Akif Çovdarovun qohumu olub və MTN-də çalışıb.

K.Nəsibovun sözlərinə görə, şahid İsgəndər Hüseynov zərərçəkmiş Şahmar Qurbanovun epizodu üzrə ifadə verib.

**İsgəndər Hüseynov zərərçəkmişin dələduzluqla məşğul olduğunu, Hindistan vətəndaşlarının brilyantını ələ keçirdiyini söyləyib. Şahid deyib ki, Şahmar Qurbanov həmin brilyantı satmaq istəyərkən ələ keçib:** "Şahmar başqalarının brilyantını "atıb". Eşidəndə ki, Çovdarov tutulub gəlib Bakıya".

Zərərçəkmiş Şahmar Qurbanov şahidin bu sözlərinə etiraz edib.

**Musavat.com-a danışan Şahmar Qurbanov deyib ki, şahid Akif Çovdarovun qohumu olduğu üçün yalan danışır:** "İsgəndər Akif Çovdarovun oğlunun kirvəsinin qardaşıdır. Əlbəttə, onun xeyrinə ifadə verəcək. Məhkəmədə deyir ki, məni MTN-də Çovdarovun otağına o aparıb. Sonrakı söhbətlərdən isə xəbəri yoxdur.

Məndən 500 min pul alıblar. 380 minlik brilyant alıblar. Əhmədlidə olan evimi də İsgəndərin arvadının adına keçirmişəm. Evimi də alıblar. Sənədləri məhkəməyə təqdim etmişəm. İsgəndəri mənimlə Çovdarov tanış edib. Onun göstərişi ilə brilyantı gətirməyə birlikdə getmişik. Təyyarədə mənim yanımda oturub".

Məhkəmədə məlum olub ki, Çovdarovun qohumu olan İsgəndər Hüseynov MTN zabiti olub və hazırda təqaüddədir. O, Çovdarovun yaxın adamı kimi tanınıb.

Zərərçəkmiş Şahmar Qurbanovun vəkili deyib ki, Çovdarovun qohumu MTN zabiti olduğu zaman maşın alveri ilə məşğul olmasını da məhkəmədə etiraf edib.

**Məhkəmə prosesi noyabrın 28-də davam etdiriləcək.**

❑ **İlkin MURADOV**

# ""Shokki Mokki"nin tərkibi 100 faiz yerli istehsaldır"

## Afiq Səfərov: "Bu məhsul "Made in Azerbaijan" yazısı ilə ölkəmizi xaricdə layiqincə təmsil edir; uşaqlara xitab edilən bir markadır, digər şirkətlərin məhsulundan daha keyfiyyətlidir"








**İctimaiyyət üçün mütəmadi olaraq açıq qapı günləri, texniki gəzintilər və ekskursiyalar təşkil edən "Azərsun Holdinq" bu dəfə "Svit Star" şokolad fabrikinə jurnalistlər üçün mediatur təşkil edib.**

Müəssisəni ziyarət edən jurnalistlər "Shokki Mokki"nin istehsal prosesi ilə tanış olublar. Mətbuat nümayəndələrinə uşaqların və böyüklərin sevimli markası olan, tərkibini əsasən Zaqatalada yetişdirilən fındıq təşkil edən, zülalla zəngin, bədənə güc və enerji verən, zehni, fiziki yorğunluğu aradan qaldıran "Shokki Mokki" şokolad kremlərinin istehsal prosesi nümayiş etdirilib. Jurnalistlərin suallarını cavablandıran müəssisə mütəxəssisləri "Shokki Mokki"nin özəllikləri və üstünlükləri barədə ətraflı məlumat verib. Bildirilib ki, məhsullar ekoloji cəhətdən sağlam şəraitdə istehsal edilərək bütün lazımi standartlara cavab verir və bununla da istehlakçıların etimadı qazanılıb, beynəlxalq sertifikatlara layiq görülüb.

**Fabrikin istehsal rəisi Natiq Məmmədov qeyd edib ki, fabrikdə Avropadan alınmış ən son avadanlıqlar quraşdırılıb, istehsal zamanı qida təhlükəsizliyi tələblərinə ciddi riayət olunur:** "Fabrikdəki bütün avadanlıqlar ən müasir texnika ilə təchiz olunub. "Shoki-Mokki"nin üstünlüyü yerli istehsal olması və azərbaycanlıların ağız dadına uyğun istehsal edilməsidir. Məhsulun tərkibində olan əsas xammallar 100 faiz yerli istehsaldır. Fındıq Zaqataladan təmin olunur. İlk yarandığı illərdə bu məhsul haqqında ziddiyyətli məlumatlar olsa da sonradan tez bir zamanda öz layiqli yerini və adını qazana bildi".




**Həmçinin qeyd edilib ki, daim müxtəlif sosial və maarifləndirici layihələr həyata keçirərək insanların, xüsusən də uşaqların, sağlamlıq və təhlükəsizliyinə xüsusi diqqətlə yanaşan bu marka ölkənin sosial həyatında aktiv şəkildə iştirak edir. Bu barədə "Azərsun Holdinq"in rəsmisi Afiq Səfərov jurnalistlərə geniş məlumat verib:** ""Shokki Mokki"nin dəstəyi ilə 100-ə yaxın məktəbdə yol hərəkətinin təhlükəsizlik qaydaları ilə bağlı maarifləndirici tədbirlər keçirilir, birbaşa dəstək olunur. Artıq 3 ilə yaxındır ki, eşitmə və danışma qüsurlu uşaqlardan ibarət "Ulduz" futbol klubuna geyim və digər maddi yardım dəstəkləri olur. Müxtəlif sağlam həyat tərzinin aşılanması üçün çoxlu sayda binaların qarşısında uşaqlar üçün yelləncəklər, turniklər kimi qurğular yerləşdirilib. Yaxın günlərdə jurnalistlərin yaşadığı binanın qarşısında da uşaqlar üçün bu cür qurğular yerləşdiriləcək.

Bu, uşaqlara xitab edilən bir markadır, digər şirkətlərin məhsulundan daha keyfiyyətlidir. Tərkibində fındıq məhsulunun faizi digərləri ilə müqayisədə daha yüksək, daha faydalıdır. Sosial layihələr keçirməklə göstərməyə çalışırıq ki, bu marka sosial məsuliyyəti olan markadır və cəmiyyətlə birgə yaşayan, inkişaf edən markadır".

**Qurum rəsmisi qeyd edib ki, ki, milli marka olan "Shokki Mokki" müxtəlif ölkələrə ixrac edilir:** "Ölkə prezidentinin bu ilin yanvarında "Made in Azerbaijan" brendinin yaradılması ilə bağlı verdiyi sərəncamından sonra şirkətimiz bu yöndə işlər aparıb. Beləliklə, milli markamız olan "Shokki Mokki" müxtəlif ölkələrə ixrac edilir, ölkə iqtisadiyyatının inkişafına mühüm töhfə verir və "Made in Azerbaijan" yazısı ilə ölkəmizi xaricdə layiqincə təmsil edir".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 261 (6582) 24 noyabr 2016

**Hazırda ölkə müxalifəti öz tarixinin bəlkə də ən passiv dövrünü yaşayır. Passivlikdən qurtulmaq üçün edilən cəhdlər isə hələ ki nəticəsiz qalır. Siyasi düşərgənin mərkəzdə özünü göstərən zəifliyi rayon təşkilatlarına da təsir edir.**

# "Müsavat 2013-də Cəmil Həsənlinin arxasında durmasaydı..."

## Müxalifətin mərkəzdəki passivliyi bölgələrə də sirayət edib; yerli fəallar obyektiv və subyektiv səbəblərdən danışdılar




Əksər siyasi qurumların, ümumiyyətlə, bir çox rayonlarda yerli şöbələri belə yoxdur. Olanlar da ya fəaliyyətsizdir, ya da fəaliyyətləri nəzərəçarpacaq dərəcədə deyil. Elə rayon şöbələri də var ki, mərkəzlə əlaqələri belə itib. Müxalifət partiyalarının yerlərdəki fəaliyyəti, gördükləri işlər və mərkəzlə əlaqələri ilə maraqlandıq.

**Müsavat Partiyasının Masallı rayon təşkilatının sədri Xasay Fərzulla çətin şəraitdə olsa da, fəaliyyətlərini davam etdirdiklərini bildirdi:** "Ümumiyyətlə, siyasi partiyaların gücü həm də onların rayonlardakı strukturları ilə ölçülür. Bu baxımdan, Müsavat müxalif siyasi partiyalar arasında rayonlarda təşkilatları olması baxımından öndə gedən partiyadır. Masallı təşkilatı olaraq, nə qədər çətin şərtlər olmasına baxmayaraq fəaliyyətimizi davam etdiririk. Mərkəzdən tapşırıq alınması fikri nə qədər qeyri-siyasi kimi səslənsə də, şübhəsiz ki, fəaliyyətimiz mərkəzlə əlaqəlidir. Tapşırıqlar nizamnamə çərçivəsində, yalnız mərkəzdə qəbul olunmuş qərarların icrası və ya keçiriləcək hər hansı tədbirin reallaşdırılması baxımından, məlumat xarakterli verilir. Çətinliklər isə əlbəttə ki, mövcuddur. Siyasi partiyaların fəaliyyəti üçün maneələr həmişə var, son bir neçə ildə isə artıb. Hakimiyyətin müxalif siyasi partiyalara münasibəti necədirsə, əyalətlərdə bəzən ondan da radikal olur. Xüsusən ölkəmiqyaslı proseslər zamanı hakimiyyətin əyalət təmsilçiləri sanki müxalifətə qarşı fövqəladə rejimdə fəaliyyətə keçir. Hakimiyyətin maneələri və basqıları, qərargahsız fəaliyyət göstərməyimiz, üzvlərimizin müxtəlif çətinlikləri üzündən təşkilatın fəaliyyətini gücləndirə bilmirik".

**KXCP-nin Salyan şöbəsinin sədri Ədalət Yusibov son 5 ildə partiyanın mərkəzi orqanlarından tapşırıqlar almadığını qeyd etdi:** "Rayon şöbəsi özünün fəaliyyətini qəbul etdiyi illik fəaliyyət proqramı, yığıncaqlarımızda *(İdarə Heyəti, RŞ- nin məclisi, sədr aparatı nəzərdə tutulur)* alınmış qərarlar əsasında göstərir. Hər hansı tədbirin həyata keçirilməsinə hakimiyyət orqanlarının müdaxiləsi həmin tədbirin həyata keçirilməsini əngəlləyə bilməyib. Düşünürəm ki, bundan sonra da belə olacaq".

**Müsavatın Mingəçevir təşkilatının sədri Nurəddin Rüstəmli mətbuatla siyasi partiyaların qarşıdurmasından əziyyət çəkdiklərini söylədi:** "Uzun fasilədən sonra yenidən bizi yad etdiyiniz üçün bütün "Yeni Müsavat"çılara, şəxsən Rauf bəyə təşəkkür edirəm. Qafqazın ən böyük media nəhəngi ilə ən böyük müxalif siyasi partiyasının toqquşmasını ağrı ilə izləyənlərdənəm. Səbəbləri araşdırmaq mənim ölçümdə olmasa da, nəticədən hamımız ziyan çəkirik. Hər nə qədər desək ki, qəzetlə partiya çoxdan ayrılıb, cəmiyyət, ictimai şüur bunu qəbul etmir! İstərdim ki, "Yeni Müsavat" qəzeti Müsavat Partiyasının tədbirlərini, fəaliyyətini, üzvlərini daim diqqətdə saxlasın və ümid edirəm ki, Rauf bəy mənim subyektiv arzularımı reallaşdıracaq. Ən azı keçdiyi yol, daşıdığı mənəvi yük bunu diktə edir... Müsavat Partiyasının Mingəçevir şəhər təşkilatı olaraq nizamnamə əsasında Mərkəzi İcra Aparatından aldığımız bütün tapşırıqları ləyaqətlə yerinə yetiririk. İstər 2015-ci ilin parlament seçkilərində, istərsə də 2016-cı il referendum ərəfəsində kifayət qədər ciddi tapşırıqlar alıb icra etmişik. Hərdən icrası çətin tapşırıqlar da olub ki, maksimum səylə öhdəsindən gəlmişik. Etiraf edim ki, əvvəlki dövrlərlə müqayisədə sıralarımız xeyli seyrəlsə də, keyfiyyət artıb. Belə ki, əvvəllər 100-150 nəfərlə gördüyümüz işləri indi 20-30 nəfərlə etmək zorundayıq. Siyasi fəaliyyətin az qala Vətənə xəyanət kimi qiymətləndirildiyi məkanda sıraların seyrəlməsi təbiidir - bura iqtisadi çətinlikləri də əlavə etsək, mənzərə aydındır. Müsavat son illərdə ən çox zərər çəkmiş partiyadır - həm mənəvi, həm də insan resursları baxımından. Burada obyektiv və subyektiv səbəblər var ki, bu başqa mövzudur. Bütün baş verənlərə baxmayaraq, yenə də bölgənin ən böyük və güclü partiyasıdır. Təsadüfi deyil ki, hətta Milli Şura belə mitinq keçirirsə, ilk təzyiqlər bizə gəlir. Bunu bütün siyasi təşkilatlar qəbul edir - ancaq qəlblərində. Tam əminliklə deyim ki, bizə indi yuxarıdan baxırmış kimi imiclənən hörmətli professor Cəmil Həsənlinin arxasında Müsavat Partiyası durmasaydı, 2013-cü ildə seçkiyə qatıla bilməzdi. İnanmırsa, 2018-ci ildə cəhd etsin - heç ilkin prosedurları aşa bilməz. Gündəlik fəaliyyətimiz insanların sosial, məişət, maddi qayğıları ilə əhatə edilib. Hətta bir görüşdə polis rəisinin müavini də sual etdi ki, camaat niyə sizə dərdini deyir? Təsəvvür edin ki, işdən çıxarılan, məmur özbaşınalığı ilə üzləşən, sosial yardım ala bilməyənlər şikayətini bizə edir - bəzi hallarda köməyimiz dəyir. Ən çox şikayət də banklardandır".

❑ Cavanşir ABBASLI

# Ailə büdcəsinə necə qənaət etməli - ekspert məsləhəti

## Rəşad Həsənov: "Bir çox ailələrdə maliyyə savadlılığı səviyyəsi çox aşağıdır"

**Hazırda dünyada yaşanan iqtisadi böhran və Azərbaycan iqtisadiyyatındakı problemlər hökuməti 2017-ci ilin büdcəsini hazırlayarkən qənaət rejiminə keçməyə vadar etdi. Deməli olar ki, büdcədə əksər investisiya xərcləri ixtisar olunub. Ailənin də kiçik bir dövlət olduğunu nəzərə alsaq, hazırkı iqtisadi böhran şəraitində ailə büdcəsinin də planlaşdırılmasına və qənaət edilməsinə ehtiyac var. Hazırda əhalini düşündürən əsas suallardan biri də məhz budur. Ailə büdcəsini necə qənaətlə idarə etmək olar? Hansı xərcləri azaltmaqla aylıq gəlirlərinin normal dolanışıq üçün yetərli olmasına nail ola bilərlər?**


Rəşad Həsənov

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Rəşad Həsənov** bildirdi ki, Azərbaycanda ailələrin maliyyə savadlılığı yetərli olmadığından ailə büdcəsinin planlı şəkildə idarə edilməsi təcrübəsi zəifdir: "Belə bir ifadə var ki, pulu qazanmaqdan çox xərcləmək çətindir. Ailə büdcəsinin idarə edilməsi məsələsində bir çox ailələrdə çətinliklər yaşanır. Ümumiyyətlə götürdükdə bir çox ailələrdə maliyyə savadlılığı səviyyəsi çox aşağıdır. Xüsusilə ailə büdcəsinin idarə edilməsində praktik yanaşmalar yoxdur. Yəni ailə tərəfindən xərclər sisteminin formalaşdırılması, əsas və ikinci dərəcəli xərclərin ayrılması kimi bir yanaşma müşahidə olunmur. Bu hər bir ailənin üzləşdiyi problemlərdən biridir. Hazırda gəlirlər kifayət qədər azalıb. Belə bir şəraitdə təbii ki, əhali xərclərini də bölməlidir. Ərzaq xərcləri, təhsil və səhiyyə xərcləri ön planda gəlməlidir. Bundan sonra növbəti xərclərin, borc öhdəliklərinin, kreditin və sairin ödənilməsinə keçmək olar".

**İqtisadçı onu da tövsiyə etdi ki, hazırkı iqtisadi şəraitdə kredit və borc öhdəliklərindən imtina etməyə ehtiyac var:** "Hazırda ölkə vətəndaşlarının bir qismi artıq kredit öhdəliklərini yerinə yetirmək iqtidarında deyillər. Xərclər əhəmiyyətlilik dərəcəsinə görə sıralanmalıdır. Ailənin gəlirlərinə uyğun olaraq onların icra olunmasına diqqət göstərilməlidir. İlk növbədə ailə üzvlərinin qidalanması nəzərə alınmalıdır. Xərcləmə prosesində də diqqətli olmaq lazımdır. Daha çox iri marketlərdəki endirim kampaniyalarından yararlanmaq lazımdır. Düzdür, bəzən bu fərqlər bir neçə qəpik ola bilər. Ancaq ümumi götürdükdə, ailə büdcəsində xeyli qənaətə səbəb olur. Bu şəkildə ərzaq məhsullarına gedən xərclərə müəyyən qədər qənaət etmək olar".

**İqtisadçının sözlərinə görə, ailə xərclərinin ən önəmli hissəsini nəqliyyat xərcləri tutduğundan mümkün qədər ictimai nəqliyyatdan istifadəyə üstünlük verməklazımdır:** "Nəqliyyat xərclərinə nisbətən daha diqqətlə yanaşılmasına ehtiyac var. Azərbaycanda sərnişin daşımanın aşağı səviyyəli inkişafı insanların bu istiqamətdə seçimini məhdudlaşdıran amillərdən biridir. Ancaq büdcə üçün hər hansı çətinlik ortaya çıxırsa, bu zaman insanlar məcburdur ki, buna qərar versinlər, daha çox fərdi maşınlarından deyil, ictimai nəqliyyat vasitəsindən istifadə etməklə ailənin aylıq nəqliyyat xərclərini müəyyən qədər aşağı sala bilərlər. Bundan başqa, indiki halda ailənin əlavə borc yükünün qarşısını almaq məqsədilə imkan daxilində kreditlərin götürülməsinə məhdudiyyət qoyulmalıdır. Çünki hazırkı dövrdə növbəti dövrlər üçün gəlirlərin planlaşdırılması olduqca çətindir. Növbəti aylarda gəlirlərin indiki səviyyədə olacağını düşünmək olmaz. Ona görə də ailələr çalışmalıdırlar ki, hazırkı şərtlər daxilində borclanmasınlar. Bundan başqa, əyləncə xərclərinə müəyyən qədər məhdudiyyət qoysunlar. Lakin vətəndaşların qənaət etməsi iqtisadi baxımdan ölkə üçün o qədər də arzuolunan hal deyil. Bu, vergilərin, dolayısı ilə də büdcəyə daxilolmaların azalmasına gətirib çıxaracaq. Son nəticədə istehsala mənfi təsir göstərir. Ancaq təbii ki, vətəndaş makroiqtisadi faktorları öz ailə büdcəsində nəzərə ala bilməz. Onun üçün prioritet aylıq gəlirləri ilə ailənin zəruri tələbatını ödəməkdir".

❑ Nərgiz LİFTİYEVA

**Redaksiyamızın elektron poçtuna Səbayel Rayon İcra Hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri Vüqar Məmmədovun açıqlaması göndərilib. Açıqlamada V.Məmmədov rayonun Badamdar qəsəbəsindəki qanunsuz tikililərin saxta sənədlərlə tikildiyini etiraf edir. Sitat: "Badamdar qəsəbəsində uzun illərdən bəri saxta sərəncamlarla zəbt olunmuş torpaq sahələrinin təmizlənməsi, qanunsuz aparılan tikintilərin sökülməsi işlərinə başlanıb və bu işlər sürətlə həyata keçirilir. Bəzi insanlar var ki, qeyri-sağlam şəxsi ambisiyalarını realizə etmək üçün bu ərazidə vaxtilə böyük torpaqlar zəbt edib, saxta sərəncamlarla buraları özlərinin qeyri-rəsmi biznesinə çeviriblər. İndi də əllərində olan saxta sərəncamları köhnə tarixlərlə vətəndaşlara satmağa çalışırlar. Təbii ki, biz də bunun qarşısını alırıq".**

# Eldar Əzizov Səbayel bələdiyyəsi və oliqarxlarla torpaq davasına çıxdı

## Səbayelin icra başçısı satılmış torpaqları yenidən satmaq istəyir; İH Badamdarda torpaq alan məmurların adını açıqlayacağını bəyan etdi



Şöbə müdiri mətbuatda bəzi qüvvələr tərəfindən icra hakimiyyətinə qarşı kampaniya aparıldığını bildirib: "Hər dəfə biz bu işlərə başlayanda, onlar icra hakimiyyətini mətbuatda qaralamağa çalışırlar. Bunları da əsasən kim edir, biz bilirik. Bilirsiz, artıq vaxtı çatıb. Bu praktika əvvəl olub, amma bu gün qəti şəkildə qarşıya məqsəd qoyulub ki, bu qanunsuzluqlara son qoyulsun. Və əlbəttə ki, belə olan halda bu işlər həmin şəxslərin maraqlarına toxunur və onlar mətbuatda öz mənafelərinə uyğun yalan məlumatlar yayırlar. Bu proses dövlət tərəfindən nəzarətlə həyata keçirilir. Elə şəxslər var ki, yamaclarda, digər sürüşmə zonası sayılan ərazilərdə iaşə obyektləri, mağazalar tikiblər. Təbii ki, belə hallar yolverilməzdi. Bir daha qeyd edirəm ki, bu ərazilərdə dövlət proqramına uyğun olaraq yaşıllıq sahələrinin salınması nəzərdə tutulur və bu proses artıq gedir. 30 hektar ərazidə damcı üsulu ilə ağaclar əkilib, yaşıllıqlar salınıb. Badamdar qəsəbəsi, 3-cü yaşayış massivində daha 6 hektar yer təmizlənib və orada zeytun ağacları ilə eyni qaydada yaşıllıq salınması işləri gedir. Artıq bu məsələlərin gündəmdən çıxarılmasının vaxtı çatıb və biz yəqin ki, Badamdar qəsəbəsində mətbuat konfransının nümayəndələri ilə açıq mikrofon keçirərək ictimaiyyətə də məlumat verəcəyik. Araşdırmalar tam başa çatdıqdan sonra lazım olsa, konkret adları təqdim edə bilərik. Və açıq müzakirələr aparmaq olar. Burada elə sənədlər var ki, şəxsin öz adına yox, başqa şəxslərin adına alınıb".

**İcra hakimiyyəti rəsmisi deyib ki, bütün məsələlər qanunvericiliyə uyğun olaraq həll olunmalıdır:** "Əks təqdirdə, bu insanlar qanun qarşısında cavab verəcəklər. Hazırda bu ərazilərdə araşdırmalar davam edir".

Bu məlumatın yayılması Səbayelin icra başçısı Eldar Əzizovun bir müddətdir Səbayel və Badamdar bələdiyyələrinin sədrləri ilə apardığı gizli mübarizəni açıq müstəviyə keçirməsindən xəbər verir.

Eldar Əzizov icra başçısı olduğu yerlərdə *(Bakının Nizami rayonu, Gəncə və Sumqayıt şəhərlərində)* torpaqları necə gəldi satmaqda, hətta ondan əvvəlki dövrdə əhaliyə paylanmış, satılmış torpaqları təkrar satmaqda, belə demək mümkünsə, peşəkarlıq nümayiş etdirib. O, Səbayel rayonuna icra başçısı vəzifəsinə gəldikdən sonra xeyli müddət gəlir mənbələri müəyyənləşdirməli olub. Çünki bu rayondakı obyektlərin sahibləri sıradan bir adamlar deyillər və başçının onlardan "haqq" alması mümkün deyil. Odur ki, E.Əzizov Səbayelə gəldiyi ilk vaxtlardan daha çox torpaq satışına diqqət yönəldib. Onun icra başçısı təyin olunduqdan sonra Səbayel və Badamdar bələdiyyələrinin sədrlərini gözümçıxdıya salması haqda informasiyalar ara-sıra sızırdı. İcra başçısı rayon ərazisində keçirdiyi "açıq mikrofon" tipli tədbirlərdə də bələdiyyə sədrlərini hədəfə alıb.

İddia edilir ki, icra başçısı son vaxtlar Səbayel rayonundakı, xüsusilə Badamdar ərazisindəki torpaq sahələri ilə bağlı araşdırmalar aparıb və bəlli olub ki, bələdiyyə sədrləri ondan xəbərsiz xeyli torpaq sahələrini müxtəlif oliqarxlarla əlbir olaraq zəbt edilmiş sahəyə çevirir və sonra sənədləşdirib satırlar. Həmin yerlərdə isə obyektlər tikilib və ya tikilir. Bu pullardan isə Eldar Əzizova çatmır və icra başçısı bundan qeyzlidir.

Səbayel bələdiyyəsi azı 10 ildir ki, adı qanunsuzluqlarda hallanmış, icra hakimiyyətini saymayan bir qurum kimi ad çıxarıb. Bu bələdiyyənin əvvəlki sədrləri fəaliyyəti dövründə saxlanılıb, məsuliyyətə cəlb olunublar.

İlk həbs 2009-cu ilin iyun ayında baş vermişdi. O zaman bələdiyyə sədri Əhməd Hüseynov barəsində Cinayət Məcəlləsinin 309.1 (vəzifə səlahiyyətlərini aşma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri üzrə cinayət işi açılmışdı.

İkinci həbs isə 2011-ci il martın 31-də baş verib. Səbayel bələdiyyəsinin sədri Mübariz İbrahimov, bələdiyyənin hüquqşünası Arif Əlizadə və bələdiyyənin Ərazi Tikinti Torpaq Komissiyasının sədr müavini Cavid Həsənov həbs olunmuşdular.

Bələdiyyənin hazırkı sədri Firdovsi Cəbrayılovdur. Onun da fəaliyyəti qənaətbəxş hesab olunmur və ən əsası, Eldar Əzizova biət etməməsi başçını hövsələdən çıxarır.

Eynilə Badamdar bələdiyyəsinin sədri Həbib Əsədovun da Eldar Əzizovun sevmədiyi persona olduğu bildirilir.

Görünən odur ki, E.Əzizov rayonunu tamamilə öz nəzarətinə keçirməyə çalışır. İddia olunur ki, o, vaxtilə bələdiyyələrin satdığı torpaqların, həmin ərazilərdəki tikililərin sənədlərini qanunsuz, həmin ərazilərin icra hakimiyyətinə aid olduğunu elan etməklə, bu torpaqları yenidən satacaq. Bu prosesdə yenə də bələdiyyə sədrlərinin həbsinin baş verəcəyi istisna deyil.

❑ **E.HÜSEYNOV**

# Ölkə siyasətinin episentri niyə daha parlament deyil?

## Azərbaycan və Gürcüstan parlamentləri siyasətçiləri qaldıran və endirən siyasi meydan rolunda...

**Gürcüstan parlamentində təmsil olunan azərbaycanlı deputat Mahir Dərziyev "Yeni Müsavat"a müsahibəsində bildirib ki, Gürcüstanda siyasi həyatın ağırlıq mərkəzi məhz parlamentdədir. Hakimiyyət olimpində qalmaq istəyənlər mütləq parlamentdə güclü fraksiyalara malik olmalıdırlar. Onun "Mixail Saakaşvilini parlament yetişdirdi, parlament də yıxdı" deməsi Azərbaycanda da bir zamanlar parlamentin ciddi mübarizə meydanı olduğunu, bir çox siyasətçiləri, siyasi qüvvələri yetişdirdiyini, həmçinin hakimiyyətdən uzaqlaşdırdığını xatırladır.**




Bu barədə danışan **politoloq Natiq Miri** bildirdi ki, əslində parlament siyasətçiləri dövlət adamı olaraq yetişdirə bilən məktəb rolunu da oynayır: "Həqiqətən də Saakaşvili məhz deputat olaraq Gürcüstanda özünü bir siyasi fiqur kimi tanıtdı və hakimiyyətə gələ bildi. Azərbaycanda da 1993-cü illərin əvvəllərində ölkə siyasətinin episentri məhz parlament idi. Hakimiyyət dəyişiklikləri ilk olaraq məhz parlamentdə baş verirdi. Xalq Cəbhəsinin siyasi elitası sayılan şəxslərin çoxu parlamentdə mübarizələri ilə siyasətdə önə çıxmışdılar. Xalq Cəbhəsi öncə parlamentə İsa Qəmbərin spiker seçilməsi ilə hakimiyyətə gəldi və təxminən bir ay sonra prezident seçkilərində mərhum Əbülfəz Elçibəy prezident seçildi. Yəni Elçibəy prezident seçiləndə əslində AXC bir aya yaxın idi hakimiyyətdə idi. AXC yeni yarandığı zaman 1990-cı ildə seçilən Ali Sovetdə deputatlardan ibarət "Demokratik blok" yaranmışdı və 25 nəfərdən ibarət həmin blokun əksəriyyəti AXC-nin üzvləri idi. Həmin üzvlər meydanda mübarizə aparmaqla yanaşı, həm də parlamentdə siyasətçi kimi formalaşdılar və gələcək hakimiyyətə hazırlandılar, özlərini cəmiyyətə parlamentdən tanıtdılar, təqdim etdilər. AXC-nin hakimiyyətə rəsmi gəlişi məhz parlamentdən başlandı".

**Ekspert xatırlatdı ki, AXC-nin hakimiyyətdən rəsmi gedişi də parlamentdə baş verdi:** "1993-cü il 4 iyun hərbi qiyamından sonra parlamentdə çox gərgin vəziyyət yaranmışdı. Prezident Elçibəydən sonra hakimiyyət piramidasında ən həlledici fiqur parlamentin sədri İsa Qəmbər idi. Xatırlayırsınızsa, prezidentdən öncə məhz İsa Qəmbərin istefa verməsinə hakimiyyət əleyhdarları bütün gücləri ilə çalışırdılar. Onlar bilirdilər ki, parlamentdə hakimiyyət dəyişikliyinə nail olmaq ölkədə hakimiyyət dəyişikliyinə nail olmaq deməkdir. İsa Qəmbərin istefasından sonra məhz belə də oldu. Beləliklə, AXC ilk olaraq parlamentdə hakimiyyətə gəldiyi kimi ilk olaraq da parlamentdə hakimiyyətdən salındı. İsa Qəmbərin istefasından sonra hakimiyyəti saxlamaq mümkün olmadı".

❑ **Etibar SEYİDAĞA**

# Bizim milli demokratiyamıza təhlükə varmı?..



**Hüseynbala SƏLİMOV**

**ABŞ-ın prezidenti Barak Obamanın Avropaya səfərini Yunanıstandan başlaması və qədim Elladanın abidələrini ziyarət etməsi nədənsə media əhlinin diqqətini cəlb etmədi...**

Bəlkə də ona görə ki, hamı səfərin bir vida turu olmasının, yaxud da ki, uzağı, yeni seçilmiş prezident Donald Trampdan qorxan avropalıları sakitləşdirmək məqsədi güddüyünün fərqində idi. Əslində elə belə idi ki, var - Obama Avropaya həm "halallaşmaq", həm də narahat dairələri bir azacıq olsa da, sakitləşdirmək üçün yollanmışdı...

Amma ilk olaraq Yunanıstana səfər etmək siyasi jest idi. B.Obama bununla demək istəyirdi ki, ABŞ bundan sonra da demokratiyaya böyük önəm verəcək...

Fəqət, bütün bunlar təsəlli verirmi? Təəssüf ki, yox. Dünyadakı prosesləri təhlil edən yazarlar siyasi xəritənin getdikcə daha tünd rəng almasını önə gətirir və demokratiyanın, insan haqlarının artıq hətta bir siyasi instrument olmadığını diqqətə çatdırırlar...

Onlar da haqlıdırlar. Amma təəssüf ki, bunu bir qədər gec sezməyə başlayıblar. Əslinə qalsa, demokratiyası ilə elə də öyünə bilməyən bir ölkənin demokratları kimi çoxdandır ABŞ-ın hər hansı bir dəstəyini hiss etmir və bundan faciə də düzəltmirik, çünki çoxdan qəbul etmişik ki, insan haqları və demokratiya məsələlərində dövlət, hətta dövlətlər belə heç də ən yaxşı yardımçı deyillər...

Bəli, 80-90-cı illərdə demokratiyanın bir dalğası oldu. Sovetlər çökdü və onların yerində guya ki, yeni demokratiyalar yarandı...

Belə dalğalar heç də hər dəfə olmur. Bundan sonra demokratiyaya dəstək həm də bu və ya digər ölkələrdə hakimiyyətə gələnlərin həmin ideyalara, yəni insan haqları və demokratiya məsələlərinə şəxsi münasibətindən, onların şəxsi simpatiyasından və ya antipatiyasından da asılı olacaqdır.

Buna da təəccüblənmək lazım deyil. Ona görə ki, artıq totalitarizm, hətta avtoritarizm də qlobal təhdid deyil. İndi dünyada bir-iki totalitar rejim ya tapıla, ya da tapılmaya... Avtroritar rejimlərə gəldikdə isə, onlar da heç də əhəmiyyətli ölkələrdə qərar tutmayıblar, bu ölkələrə böyük dövlətlər bir oyuncaq kimi baxırlar...

Düzdür, demokratiya araşdırıcıları bu ideyanın qlobal səviyyədəki qabarma və çəkilmələrindən bəhs edirlər. Amma açığı, onları oxuyanda adamın beynindən bir sual keçir: İlahi, bunlar nələrin hayındadır?..

Belə məsələlər geniş spektri əhatə edir. Məsələn, bəzi Avropa ölkələrində demokratiya o qədər "qıcqırıb" ki, uşaqlara cinsi mənsubiyyətlərini müəyyən etmək üçün sərbəst seçim imkanı verməyə çağıranlar var!..

Yaxud da Amerikadakı kimi seçicilər kollegiyasını ləğv etməyə, birbaşa seçkiləri təsbit etməyə səsləyənlər var...

İki misalı ona görə çəkdim ki, prosesin spektri haqda təsəvvürümüz olsun. Çünki bəzi hallarda onu başa düşür, bəzi hallarda isə tələbləri heç anlamaq iqtidarında olmuruq. Sonuncuya misal kimi bir daha Avropanın bəzi ölkələrindəki "post-liberal" demokratiyanı misal göstərmək olar...

O ki qaldı demokratiyanın ümumilikdə götürəndə taleyinə, insanlar arasında həmişə azadlıq, bərabərlik və sosial ədalət ideyaları olub və bundan sonra da olacaqdır. Yüz illərdir ki, bu proses gedir, genişlənir və hələ bundan sonra da genişlənəcək...

O, ABŞ-ın və yaxud da başqa ölkənin demokratiyanı dəstəkləyib - dəstəkləməməsindən, hansısa beynəlxalq təşkilatın bəyanat verib və ya verməməsindən asılı deyil, çünki bu məsələlər insanın içindən gəlir...

Əslində bütün dəstək - filan sonralar oldu. Bir vaxtlar biz mitinqlərə çıxanda, Azadlıq meydanı adam seli ilə coşanda nəinki ABŞ dəstək vermir, yaxud hansısa beynəlxalq təşkilat münasibət bildirmirdi, heç qəzetlərdə də bu haqda bir sətir də tapmaq olmurdu...

Mən dəfələrlə bir məsələni yazmışam... Bəli, Qədim Afinada demokratiyanın (quldarlıq demokratiyası olsa belə!) ilk rüşeymləri yarananda və ya ABŞ-da ilk demokratik dövlət ("ağ"ların demokratiyası adlansa da!) bərqərar olanda, nə Avropa Şurası vardı, nə də ki, bir qeyri Şura...

Ona görə də narahat olmayaq... O ki qaldı Azərbaycanla bağlı narahatlıqlara, olmayan bir şeyin olmayacağından narahatlıq keçirməyə nə lüzum var? Azərbaycanda demokratiyanın yalnız bir neçə kiçik elementi qalıb. Məsələn, dərinə getmədən, bəzi kiçik məsələlərdə hakimiyyəti və məmurları tənqid etmək olar. Amma getdikcə bunun da imkanı azalır, çünki televiziyalarda bu, qəti mümkün deyildir, qəzetlər isə aqoniyadadır. Hələki saytlarda nəsə yazmaq olur, di gəl, onlara da nəzarət etməyə çağıranlar var...

Bu səbəbdən də heç narahat olmayaq. Dünya demokratiyasını demirəm, bizim əzizi, milli Azərbaycan demokratiyasını elə bir təhlükə gözləmir...

# "İranla gediş-gəlişin asanlaşdırılmasına ehtiyac var"

## Əflatun Amaşov: "Bizdən umacaqları dostluq və qardaşlıq münasibətlərinin daha da dərinləşdirilməsi idi"

**Azərbaycan Mətbuat Şurasının (MŞ) sədri, deputat Əflatun Amaşov İrandan səfərdən qayıdıb. Onunla İran təəssüratlarına dair söhbət etdik.**

*Öncə müsahibimiz səfəri zəruri edən məsələlərdən bəhs etdi:*

- İrana səfərim ölkənin Mədəniyyət və İslam İrşadı Nazirliyinin dəvəti ilə reallaşdı. Məqsəd İran mətbuatı və xəbər agentliklərinin 22-ci beynəlxalq sərgisində iştirak idi. Kifayət qədər uğurlu səfər oldu. Bir sıra faydalı görüşlər keçirdim. İranın rəsmi şəxsləri və media cameəsinin təmsilçiləri ilə yaxından təmaslar qurmaq, müzakirələr aparmaq imkanım oldu. İndiyədək iki ölkə arasında əlaqələr olub, ancaq istədiyimiz intensivlik nəzərə çarpmayıb. Müqayisəli yanaşsaq, Türkiyənin media qurumları ilə daha sıx münasibətlərimiz var. Düşünürəm ki, İslam respublikasının jurnalist təşkilatları, eləcə də kütləvi informasiya vasitələri ilə yaxından işləməliyik. İran həm qonşumuzdur, həm müsəlman aləminin, həm də dünyanın bir çox parametrlər üzrə güclü inkişaf etmiş dövlətlərindəndir. Hesab edirəm ki, onun mediası da bölgədə xüsusi çəkiyə malikdir. Əməkdaşlığı zəruri edən bir cəhət budur.

İran bizim üçün yalnız qonşu ölkə deyil, həm də soydaşlarımızın yaşadıqları məmləkətdir. Dünyanın heç bir yerində soydaşlarımızın sayı, üst-üstə götürsək, İrandakı qədər deyil. Əsrlərlə ortaq tariximiz olub. İran və Azərbaycan xalqları adət-ənənə yaxınlığına, mənəvi bağlara malikdirlər. Hər iki ölkənin media orqanları buna xüsusi önəm verməlidir. Onlar arasındakı əməkdaşlıq ortaq dəyərləri yaşatmalıdır. Məsələyə bu mənada yanaşsaq, intensiv münasibətlərin qurulması üçün bir qədər gecikmişik. Ancaq düşünürəm ki, itirilmiş zaman kəsiyini bərpa etmək imkanlarımız daxilindədir. İran tərəfi də məsələyə önəm verir, biz də. Təmaslarımızın artması bununla bağlıdır.

***- İranda imzalanan memorandum iki ölkə mətbuatına nə vəd edir?***

- İran və Azərbaycan dövlətləri arasında münasibətlər kifayət qədər çoxşaxəlidir və möhkəmdir. Bu münasibətlər müstəqillik illərində çoxlu sayda sınaqlardan çıxıb. İranı Azərbaycana, Azərbaycanı da İrana qarşı qoymaq istəyən qüvvələr olub. İrana beynəlxalq miqyasda sərt tədbirlərin yönəldiyi dönəmdə Azərbaycanın müxtəlif oyunlara alət olmaması diplomatiyamızın müstəsna qalibiyyətidir, prezident İlham Əliyevin dövlət xadimi kimi böyüklüyünün göstəricisidir. Hazırda münasibətlərin ən yüksək səviyyədə olması, iqtisadi müstəvidə imzalanmış sazişlər də həmin dövrdəki prinsipiallıqdan, siyasi iradədən qaynaqlanır.

Azərbaycan Mətbuat Şurası ilə İranın Mədəniyyət və İslam İrşadı Nazirliyinin Mətbuat və İnformasiya Departamenti arasında imzalanmış əməkdaşlıq memorandumu iki ölkə arasında media sahəsindəki əməkdaşlığa dair ilk sənəddir. 10 maddədən ibarət olan memorandumu imzalamaqla tərəflər razılığa gəliblər ki, onlar ölkələrində fəaliyyət göstərən media orqanlarını əməkdaşlıq qurmağa və onu möhkəmləndirməyə, xəbərlər, şəkillər, hesabatlar və s. daxil olmaqla, öz məhsullarının qarşılıqlı mübadiləsini həyata keçirməyə təşviq edəcəklər. Sənəddə informasiya nümayəndəliklərinin fəaliyyətə başlamasına və idarə edilməsinə dəstək göstərilməsi, bunun üçün ən yüksək səviyyəli hüquqi və texniki əməkdaşlıq məsələlərinin reallaşdırılması, kütləvi informasiya vasitələrinin proqramlar, xəbərlər, müsahibələr kimi birgə media layihələrinin gerçəkləşməsi üçün nəzərdə tutulan tədbir və təşəbbüslərinə kömək edilməsi, qarşılıqlı jurnalist səfərlərinin təşkili və digər məsələlər əksini tapıb. Yaxın gələcəkdə sənədin konkret faydasını görə biləcəyik.





***- Bakıya qayıtdıqdan az sonra İranın ən böyük media orqanlarından olan İRNA xəbər agentliyinin icraçı direktoru Məhəmməd Xoddadi ilə bir araya gəldiniz. Bu, bir təsadüf idi, yoxsa planlaşdırılmış səfər?***

- Cənab Xoddadi bu ilin sentyabrında da Bakıda səfərdə olmuşdu. Həmin vaxt onunla Mətbuat Şurasında müəyyən müzakirələr apardıq. Tehranda olarkən də İRNA-nın qərargahında görüşdük. Agentliyin fəaliyyəti ilə yaxından tanış oldum. İRNA Yaxın və Orta Şərqin ən böyük, dünyada qəbul edilən informasiya agentliklərindən biridir. Bu media orqanının təcrübəsinin öyrənilməsinə ehtiyac var.

İRNA-nın icraçı direktoru Dünya Xəbər Agentliklərinin V Koqresi çərçivəsində Bakıya gəlmişdi. Belə düşündük ki, onunla Azərbaycanın kütləvi informasiya vasitələrinin rəhbərlərinin ayrıca görüşünü təşkil edək. Toplantı həm də İranın Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri cənab Cavad Cahangirzadənin ölkəmizin media təmsilçiləri ilə görüşü kimi də yadda qaldı.

***- İranda səfərdə olduğunuz müddətdə ziyarət etdiyiniz ünvanlar, keçirdiyiniz görüşlər barədə sosial şəbəkədə paylaşımlar edir, bəzən də türk qəhrəmanların məzarı başından duyğusal fikirlər paylaşırdınız...***

- İrana təxminən 15 il əvvəl getmişdim. Yenidən bu ölkədə olmaq məndə fərqli ovqat yaratdı. İstər görüşlərim, istərsə də ayrı-ayrı məkanları ziyarətlərim təəssürat zənginliyi ilə yadda qaldı. Səttarxanın və Şeyx Məhəmməd Xiyabaninin məzarını ziyarət etdim. Əlbəttə, təəssürat zənginliyini bir qədər də artırmaq olardı. Sadəcə səfər proqramında konkretlik var idi. 4-5 günlük səfərlə İranın bütün tarixi yerlərinə baş çəkmək mümkün deyildi.

İran qədim və əzəmətli ölkədir. Onun hər daşında ortaq tariximizin, türk-fars tarixinin izləri yatır. Orada olmaq, müqəddəs məkanları ziyarət etmək çox xoş duyğudur.

***- Siz İran parlamentində yeni yaradılan Türk Fraksiyasının rəhbəri Məsud Pezeşkanianla görüşdən hansı qənaətə gəldiniz: soydaşlarımızın səsi daha da ucadan eşidiləcəkmi, yoxsa bu da hakimiyyətin bir oyunudur?***

- Bir qədər öncə İran hakimiyyətinə beynəlxalq təzyiqlərdən söz açdım. Həmin dövr yadımızdadır. Anti-İran cəbhəsində dayananlar hardasa ehtimal edə bilərdilər ki, həmin vaxt İran hakimiyyətində hansısa yumşalmalar olacaq. Ancaq müşahidələrimə əsasən onu deyə bilərəm ki, İran hakimiyyəti əvvəl hansı mövqedə idisə, indi də eyni mövqedədir və bu mövqe İran xalqı tərəfindən dəstəklənir. Yəni hansısa oyundan söz açırsınızsa, onu ağır dövrdə oynamaq daha məntiqi görünə bilərdi. Buna görə də oyun ehtimalı barədə düşünmürəm.



## "Mən İranda olarkən çox rahat şəkildə sosial şəbəkələrdən istifadə edirdim"

Azərbaycandan İran fərqli görünə bilər. Bu görüntünü məqsədli şəkildə yaradan qüvvələr də var. Belə qüvvələr İranda da olub. Bəlkə indi də var. Onlar Azərbaycanı fərqli tərzdə təqdim etməyə çalışıblar. Reallıq isə budur ki, İran çoxmillətli ölkədir və İran xalqı deyilən bir anlayış mövcuddur. Bu anlayışda farsa da, bəluca da, bəxtiyariyə də yer var, türkə də. Əlbəttə, türklərin sayı çoxdur və deməzdim ki, bu çoxluq zəif təşkilatlanıb. Ola bilər, təşkilatlanmaya heç ehtiyac da yoxdur. Çünki böyük hesabla soydaşlarımız ölkənin bütün sferalarında təmsil olunurlar. Güc strukturlarından tutmuş elm sahəsinədək hər yerdə türklərə rast gələ bilərik və onların hər birinin düşüncəsində vahid və bölünməz İran var. İrançılıq milli kimliyin dərkinə mane olmur. Bu ideoloji xəttin dəyişəcəyini düşünmək, zənnimcə, sadəlövhlük olardı. İran oturuşmuş dövlətçilik ənənələrinə, güclü iqtisadiyyata malik ölkədir. Cənab Pezeşkanianla söhbətimiz də mövcud xüsusda idi.

Doğrudur, İranın bəzi siyasi dairələrində zaman-zaman ölkənin bölünməzlik faktoru kimi ayrı-ayrı xalqların dil, mədəniyyət məsələlərinə müəyyən mənada qısqanclıqla yanaşmalar olub. Bu münasibətlə soydaşlarımız da üzləşiblər. Bir çox hallarda həssas nöqtədən İranı parçalamaq istəyən qüvvələr sui-istifadə etməyə çalışıblar. Düşünürəm ki, İran hakimiyyəti bu sayaq meyllərin mövcudluğunu dəyərləndirir və daxili idarəçiliyi optimallaşdırmaq yolu tutur. Mövcud dəst-xətdə bir element parlamentdə türk fraksiyasının yaradılmasıdırsa, buna niyə də gedilməsin? Əlbəttə, İran parlamentində türk fraksiyasının olması çox müsbət haldır. Onlar ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında daha fəal iştirak hüququ əldə edəcəklər.

***- Deyəsən, Azərbaycan şəhərlərini gəzmək imkanınız olmayıb. Bəs Azərbaycan türkləri sizin Bakıdan gəldiyinizi biləndə necə yanaşırdılar, nələr danışırdılar, onları narahat edən məsələlər hansılardır? Ümumən güneyli qardaşlarımız Quzeydən nə umurlar?***

- Səfərim əvvəlcədən planlaşdırılmış səfər idi. Tehrandan başqa İsfahanda və Reydə oldum. Səyahət etdiyim şəhərlər böyük tarixi mərhələyə şahidlik etmiş məkanlardır və o tarixdə biz də varıq. Azərbaycan tarixinin şanlı səhifələrinin yazıldığı yerlərdə olmaq, əlbəttə, gözəl hisslər və yaşantılardır.

Bakıdan gəldiyimi biləndə çox sevindilər. Bizdə olduğu kimi, onlarda da Arazın o tayının fərqli anlamı var. İnsanlar gələcəklə yaşayırlar, ancaq keçmişi də yaşadırlar. Müxtəlif söhbətlərimiz oldu. Mən onların qonağı idim. Narahatlıqları olsa belə, hər halda, qonağa bildirməzlər. Bizdən umacaqları isə dostluq və qardaşlıq münasibətlərinin daha da dərinləşdirilməsi idi. Elə bilirəm ki, İrana səfərimin qayəsində də elə bu dururdu.

***- Elə bugünlərdə deputat həmkarınız Qüdrət Həsənquliyev İran və Azərbaycan arasında viza sisteminin ləğvini təklif etdi. İranda, xüsusilə də azərbaycanlılar arasında viza məsələsinə münasibət necədir?***

- Orada olarkən bu barədə söhbətimiz düşmədi. Əlbəttə, xalqları bir-birinə yaxınlaşdıran bağlar nə qədər çox olsa, bir o qədər yaxşıdır. İran bizim qonşumuzdur, eyni zamanda orada çoxlu sayda soydaşımız yaşayır. Bu mənada gediş-gəlişin asanlaşdırılmasına ehtiyac var. Düşünürəm ki, zaman keçdikdə bu məsələlər də həllini tapacaq.

***- İran mətbuatı Azərbaycan haqqında nə yazır, izləyə bildinizmi?***

- Müəyyən müşahidələrim oldu. İranın aparıcı media orqanlarının müxtəlif dillərdə yayımlanan internet saytlarına nəzər saldım. Deməzdim ki, Azərbaycana kifayət qədər yer verilir. Ancaq laqeyd də deyillər. Əlbəttə, Azərbaycanda keçirilən dünyamiqyaslı tədbirlər İran mediasında da işıqlandırılır. Azərbaycanın aparıcı mediası üçün İran mövzusu daha aktualdır. Bu da başadüşüləndir.

***- Çox hallarda İranın işğalçı Ermənistanla əlaqələrə daha çox diqqət yetirdiyi, dəstək verdiyindən bəhs olunur. Rəsmilərlə görüşdə bununla bağlı iradınızı çatdırdınızmı?***

- Məsələnin nə üçün belə olması aydındır. Dağlıq Qarabağ münaqişəsi geosiyasi məsələdir. İran da regionda mövqeyini qoruyub saxlamağa çalışır. Buna görə də öz maraqlarından çıxış edir. Digər tərəfdən, İran böyük ölkədir. Orada ermənipərəst qüvvələrin olması mümkündür və belə qüvvələr var. Azərbaycan dövləti rəsmi səviyyədə bu və ya digər məsələyə öz reaksiyasını ortaya qoyub. İctimaiyyət nümayəndələri də baxışlarını ifadə ediblər.

Mən iştirak etdiyim sərgi çərçivəsində düzənlənmiş mərasimdəki çıxışımda Dağlıq Qarabağ münaqişəsinə toxundum. Bildirdim ki, islam coğrafiyasında münaqişəli bölgələr az deyil və bu bölgələrdə ədalət prinsipinə etinasız yanaşılır. Doğruları, ədaləti təbliğ edəcəyimiz platformaya ehtiyacımız var. Mövcud istiqamətdə fikir mübadiləsi aparmalıyıq, konkret nəticələr əldə etməliyik. Yəni medianın doğruları, həqiqətləri təbliğ edən platforma olmasının zəruriliyini əsaslandırdım. Düşünürəm ki, İran mediası ilə gələcək əməkdaşlığımız qeyd etdiyimiz mənfi meyllərin sıradan çıxması baxımından da əhəmiyyətli ola bilər.

***- İranda sosial şəbəkələrdən istifadə, Azərbaycan mətbuatını izləmək, TV-lərinə baxmaq imkanları nə qədərdir?***

- Bildiyimə görə, İranda ümumən internetlə bağlı müəyyən məhdudiyyətlər var. Bu da dövlət siyasətidir və qadağalar əsaslandırılır. Ancaq mən orada olarkən çox rahat şəkildə sosial şəbəkələrdən istifadə edirdim. Azərbaycanın media saytlarını izləyirdim. Ayrı-ayrı insanların mobil telefonları vasitəsilə sosial şəbəkələrdən yararlandıqlarını, internet saytlarını izlədiklərini görürdüm.

Ümumən Azərbaycanın televiziya və radio kanalları İranda çox populyardır. Təbii, seyrçi və dinləyiciləri soydaşlarımızdır. Onlar telekanallarımıza bəlkə bizdən də artıq maraq göstərirlər. Üstəlik, İranda ana dilimizdə yayımlanan televiziya və radio kanalları var. Yeri gəlmişkən, deyim ki, bu informasiya vasitələrində ana dilinə məxsusi yanaşılır. Dilin qayda-qanunlarına, ədəbi dilin normalarına olduqca həssas münasibət göstərilməsi, hər incəliyin qorunması məni yaxşı mənada təəccübləndirdi. Hətta qibtə etdim də...

❑ **Elşad PAŞASOY**

## Qarabağ böhranı: Ankara-Moskva böhranından əvvəl və sonra




# Azərbaycan özünü yeni müharibəyə hazırlayır - sülh imkanları təzədən basdırıldı

### Bu gün Rusiya ilə Türkiyənin arasını vuran “Su-24" insidentindən bir il ötür - ötən ilin əsas yekunu; **politoloq:** ”Bakı Pakistan, İsrail, Türkiyə və Ukrayna hesabına Ermənistan üzərində hərbi üstünlüyü yenidən təmin edəcək..."

**Türkiyə-Rusiya münasibətlərini böhrana salmış “Su 24" insidentindən bu gün bir il ötür. İnsident iki regional superdövlətin qarşılıqlı əlaqələrində təxminən 8 ay kritik vəziyyət yaratsa da, - kritik vəziyyətin qoyduğu neqativ izlər hələ tam silinməyib - yaxşı ki, yekun etibarilə barışla bitdi. Çünki Ankara və Moskvanın bir-birinə ehtiyacı var idi. Bu qarşılıqlı ehtiyac yenə yerində qalır və regiondakı dramatik proseslərlə bağlı hələ bir az da artmış kimidir.**

Rusiya-Türkiyə barışığında təbii ki, ən çox maraqlı olan ölkələrdən biri Azərbaycan idi. Çünki söhbət bizim 1 nömrəli, təbii strateji müttəfiqimiz olan qardaş ölkə ilə ən böyük qonşumuz, Dağlıq Qarabağ məsələsində həlledici söz sahibi olan və ən önəmlisi, işğalçı Ermənistanın əsas hərbi-siyasi müttəfiqi arasında yaranmış böhrandan gedirdi. Bu böhranın küləyi istəsək də, istəməsək də, bizi “vururdu”. Hətta Bakı üçün qəliz seçim məsələsi ortaya çıxa bilərdi.

Hərçənd Azərbaycan kritik durumdan itkisiz çıxmağı bacardı. Diqqətçəkicidir ki, həmin 8 ayda rəsmi Bakı Ankara əleyhinə, Kremlin isə xeyrinə nəinki hansısa addımda, hərəkətdə bulanmadı, əksinə, qardaş ölkəni heç bir halda şimal qonşumuzun ayağına vermədi, sabiq baş nazir Əhməd Davudoğlu kritik günlərdə Bakıda olarkən isə prezident İlham Əliyev açıq şəkildə bəyan elədi ki, Türkiyənin problemi Azərbaycanın problemidir və Bakı həmişə Ankaranın yanındadır. Eyni mövqeni Azərbaycanın dövlət başçısı terror aktları ilə silkələnən və o üzdən Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərinin iki dəfə əngəllənməsinə cavab olaraq, Türkiyəyə etdiyi ziyarət zamanı ortaya qoydu.

Bundan əlavə, maraqlıdır ki, kritik 8 ayda Azərbaycanla Türkiyə arasında hərbi və hərbi-əməkdaşlıq əlaqələri bir az da gücləndi. Konyada iki qardaş ölkənin möhtəşəm ortaq təlimləri keçirildi, ardınca prezident İlham Əliyev Azərbaycan ərazisində bəzi hərbi obyektlərin Türkiyə Silahli Qüvvələrinin ixtiyarlına verilməsi haqda tərəflər arasında imzalanmış protokolu təsdiqlədi.

O vaxt erməni qaynaqlarının da narahatlıqla qeyd etdiyi kimi, bu, faktiki şəkildə türkiyəli generalların Azərbaycan ordusunda xidmətə götürülməsi (hərbi müşavir, məsləhətçi, təlimatçı və s. qismində) demək idi. Doğrudur, Müdafiə Nazirliyi məsələyə fərqli şərh verdi - bu da anlaşılan idi əslində, hər necə olmasa, onsuz da Türkiyəyə qəzəbli olan Putini daha da qıcıqlandırmaq olmazdı.

Nəhayət, işğalçı erməni hərbi qüvvələrinin acınacaqlı məğlubiyyəti və 2000 hektar ərazimizin geri alınması ilə bitən aprel döyüşləri də məhz Türkiyə və Rusiya arasında kritik münasibətlər dönəminə təsadüf elədi. O zaman Rusiya KİV-lərinin əksəriyyəti forpost Ermənistana hərbi şapalaq effekti verən bu toqquşmanın arxasında məhz Türkiyənin dayandığını iddia eləməkdən yorulmurdu...

*****

Güman eləmək olardı ki, Türkiyə-Rusiya münasibətlərinin qaydaya düşməsi ilə Qarabağ konfliktinin nəhayət ki, dinc həlli üçün əlverişli perspektiv açılacaq, münbit zəmin yaradacaq. İlk aylar buna inam artmışdı da. Xüsusən də prezident R. Ərdoğanın Rusiyaya (Sankt-Peterburqa), V.Putinin isə Türkiyəyə (İstanbula) qarşılıqlı səfərlərindən sonra Qarabağ məsələsinin həllində müsbət dinamika müşahidə edilməkdə idi. Hətta Ərdoğanın və Türkiyə XİN başçısı M.Çavuşoğlunun dilindən “5 rayon” məsələsinin razılaşdırıldığı haqda inamlı açıqlamalar səslənmişdi. Bakı-Ankara-Moskva üçlü formatı haqda təklif də həmin vaxt gündəmə gəlmişdi.

Fəqət, ümidlər doğrulmadı. Əksinə, Ankara-Moskva əlaqələrinin yaxşılaşması fonunda sanki Rusiyada bir arxayınlıq yarandı və şimal qonşumuz diqqətinin xeyli hissəsinin aprel döyüşlərindən sonra ondan incik düşmüş müttəfiq ermənilərin könlünü almağa, bir az da Sərkisyan rejimini möhkəmlətməyə yönəltdi.

Nə qədər qəribə görünsə belə, Ermənistanın hava məkanının tamamilə Rusiya HHQ-nin nəzarətinə keçməsi, işğalçı ölkəyə “İsgəndər M”, “Smerç” kimi müasir raket komplekslərinin verilməsi, nəhayət, Rusiya ilə təcavüzkar ölkə arasında ortaq ordunun yaradılması məhz Ankara-Moskva münasibətlərinin istiləşməsindən sonrakı dövrə təsadüf edir. Bu da faktiki surətdə Azərbaycanla yanaşı, Türkiyəyə, yumşaq desək, bir qeyr-dost mesajı, Qarabağ danışıqlarının isə sabotaj edilməsi anlamına gəlir. Nədən ki, məhz sadalanan dəstəyin fonunda İrəvanın sülh danışıqlarında mövqeyi təzədən sərtləşmiş oldu.

Bəs bundan sonrakı proseslər nə vəd edir, üfüqdə Qarabağla bağlı hansısa anlaşma görünürmü? Müharibə ehtimalı necə, Moskva-Ankara ilişkilərinin istiləşməsi fonunda artır, yoxsa azalır?

*****

**“İndiki şərtlər daxilində Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli mümkün deyil”. Bunu politoloq Elxan Şahinoğlu yazıb. Onun qənaətincə, Azərbaycan cəmiyyətinin aprel döyüşlərindən sonra böyük dövlətlərin Ermənistan hakimiyyətinə təzyiq edərək Dağlıq Qarabağ ətrafındakı rayonların danışıqlar yolu ilə azad olunacağına ümidləri özünü doğrultmayıb.**

“Dağlıq Qarabağın ”müstəqilliyini" istəyən Ermənistanın özü artıq müstəqilliyini itirib. Azərbaycan silahlanmaya hər il milyardlarla dollar xərcləmək məcburiyyətindədir. Bunun da səbəbi torpaqlarımızın işğal altında olmasıdır. Faktiki, Azərbaycan özünü gələcək hərbi toqquşmaya hazırlayır. Çünki indiki şərtlər daxilində konfliktin sülh yolu ilə həlli mümkün deyil" - təhlilçi qeyd edib.

**Siyasi şərhçiyə görə, danışıqlarda hazırkı susqun gedişat torpaqları geri almaq üçün mütləq ordudan istifadəyə dair inam formalaşdırır:** “Apreldəki döyüşlər buna nümunədir. Deməli, Ermənistan daha böyük əraziləri itirməklə başqa reallıqla da barışa bilər. Qarşı tərəf Azərbaycan ordusunun daha böyük gücünü görməyənə qədər işğaldakı torpaqları geri qaytarmayacaq. Rusiyanın Ermənistana verdiyi İsgəndər raketləri hələ də müzakirə predmetidir. Moskva Ermənistanla müqayisədə hərbi balansın Azərbaycanın xeyrinə pozulmasını istəmir, ona görə də ”İsgəndər"ləri Ermənistanda yerləşdirdi".

**Analitikə görə, rəsmi Bakı isə hərbi balansı yenidən öz xeyrinə dəyişməyə çalışır:** “Pakistan, İsrail, Türkiyə və Ukraynadan alınacaq modern silahlar hərbi baxımdan yenidən Azərbaycanın Ermənistan üzərində üstünlüyünü əyani nümayiş etdirəcək. Hərbi balansın yenidən Azərbaycanın xeyrinə dəyişəcəyi vaxt uzaqda deyil. Ermənistan bu yarışda Azərbaycanla ayaqlaşa bilmir. Sərkisyanın bu yaxınlarda Ermənistanın silah almağa pulunun olmamasını açıqlaması onun ən böyük etirafı idi. Belə olan halda isə Ermənistanın daha çox Rusiyaya sığınması onun müstəqlliyini məhdudlaşdırır”.

*****

**Əlavə edək ki, bu da o anlama gəlir ki, qarşıdakı yeni dönəmdə Azərbaycan Dağlıq Qarabağı geri almaq üçün heç vaxt olmadığı qədər ən əvvəl Moskva ilə anlaşmalı olacaq - Ankara ilə münasibətləri xeyli istiləşən Moskva ilə.**

**Bəlkə də bu, Rusiyanın yeni bir hiyləgər taktikasıdır ki, Ermənistanı özündən daha çox asılı eləməklə, İrəvanın Qarabağ məsələsinə təsirini sıfıra endirməklə sonradan Bakı və Ankara ilə istədiyi şəkildə Qarabağ bazarlığı yapa bilsin? Axı, hər necə olmasa, Kreml Azərbaycan və Türkiyə ilə münasibətlərə də böyük önəm verir. Qarabağ ixtilafı isə bu önəmi zədələyir...**

❑ Siyasət şöbəsi

# Elbaşının Astanası



Xalid KAZIMLI

**Qazaxıstanda prezident Nursultan Nazarbayevin rəsmi titulu Elbaşıdır. Tərcüməyə ehtiyac varmı? Yoxdur. Türk dilindədir, elbaşı elin başçısı deməkdir. Nazarbayev qazax ellərinin başçısıdır.**

Türkmənistanda keçmiş prezident Saparmurad Niyazova da “Türkmənbaşı” deyirdilər - yəni türkmənlərin başçısı.

Müqayisə tamamilə qüsurlu olacaq, amma Türkiyə respublikasının qurucusu Mustafa Kamal paşanın Atatürk soyad-titulu da ordan gəlir - türklərin atası deməkdir.

Bu ilin avqustunda vəfat etmiş Özbəkistan lideri İslam Kərimov bu cür titullara ehtiyac duymurdu. Ancaq o, asiyalı həmkarının hamısından daha sərt və daha şöhrətpərəst idi.

İndi Qazaxıstanda belə bir söhbət var ki, Qazaxıstanın paytaxtı Astananın adı dəyişdirilsin və şəhərə ölkə prezidenti Nursultan Nazarbayevin rəsmi titulu olan Elbaşı adı verilsin.

Bu adi, ortalıqda dolaşan söhbət deyil, ölkə parlamentinin bir qrup deputatı bununla bağlı qanun layihəsi hazırlayıb.

Əlbəttə, mandatı, varidatı bu cür yaltaqlıqlardan çıxan deputatlar hər ölkədə var. Astananı Elbaşı etmək istəyən deputatlar da qazaxların yalakalarıdır.

Yaddaşımıza güc versək, 17-18 il öncə bənzər təşəbbüsün bizim ölkədə də qaldırıldığını xatırlaya bilərik.

O zaman bəzi deputatlar prezident Heydər Əliyevin adının hansısa şəhərə verilməsini, sağlığında heykəlinin qoyulmasını, hətta ona milli qəhrəman adı verilməsini təklif edirdilər. Amma bu təşəbbüslər geniş müzakirəyə çıxarılmadan boğuldu. Heydər Əliyev özü bu təşəbbüsü qaldıranlara üz vermədi.

Qazaxıstanda gedən bu söhbət isə yerli informasiya məkanından sızıb dünya mediasına çıxıbsa, demək, ideya beşiyində boğulmayıb və onun pərvazlanmasına imkan verilib.

Ancaq bu, o demək deyil ki, Nazarbayev bu təşəbbüsü dəstəkləyəcək və sağlığında öz titulunun ölkə paytaxtına verilməsini təşkil edəcək. Bilmək olmaz.

Bu şəhərin yeni adını Nazarbayev özü qoyub. Yəni istəsəydi, 1998-ci ildə Akmolanın adını birbaşa Elbaşı və ya Nurabad qoyardı və hamı da dəstəkləyərdi.

Əvvəllər şəhərin adı Aqmolinsk, sonra Selinoqrad, daha sonra Akmola adlanıb, 18 il öncə isə Astanaya çevrilib.

Şəhərin adı növbəti dəfə dəyişilsə, bu, dördüncü dəyişiklik demək olacaq.

Razılaşaq ki, 100 ildə bir neçə dəfə ad dəyişdirmək istənilən şəhər üçün problem deməkdir. İş absurda gedə bilər.

Bu təşəbbüsün əsas müəllifi, Qazaxıstan parlamentinin deputatı Kuanış Sultanov bu təklifinin Nazarbayevin əməyinə qiymət verilməsi kimi xarakterizə edib və əlavə olaraq bildirib ki, Elbaşının adının paytaxtın adında və ölkədəki başqa obyektlərdə öz əksini tapması yaxşı olar.

Bu, tipik şərqli şahsevənliyidir. Asiya daima bu kimi ifrata varmış şahsevənliyin, ikrah doğuran məddahlığın, qolu bağlı qul itaətkarlığının, çoxmaskalı riyakarlığın məskəni olub və müasir dünyanın qəbul etmədiyi ənənəni yaşatmaqda davam edir.

Düzdür, parlaq, xidmətləri böyük dövlət xadimlərinin adının küçə və meydanlara, aeroportlara verilməsi ənənəsi hər yerdə var, amma bu, Avropa dövlətlərində bəlli bir çərçivədədir.

Fransada Şarl de Qollun adına aeroport var. Dünya siyasətinin baş şəhəri Vaşinqton ABŞ-ın ilk prezidenti Corc Vaşinqtonun adını daşıyır. Ancaq bu tarixi şəxsiyyətlər öz adlarını sağlıqlarında şəhərə və ya aeroporta verməyiblər. Bunu sonradan, onların xidmətlərini qiymətləndirənlər edib.

Şərqdə, Asiyada isə bu cür təşəbbüslərin mayasında isə hamıdan qabağa düşmək, daha çox varidat əldə etmək ehtirası durur.

Yetər ki, əlində hüdudsuz hakimiyyət cəmləmiş şəxs bu kimi təşəbbüslərə etiraz etməsin və onları alqışlasın. Belə olsa, yaltaqlar ordusu hətta ölkənin də adını dəyişdirmək təşəbbüsü qaldırarlar.

Presedent də var. Ərəb dünyasının ən qüdrətli və böyük dövləti bir nəslin, Səud adlanan tayfanın adını daşıyır və Səudiyyə Ərəbistanı adlanır.

Dövlət idarəetməsindəki bu cür mütiliyin, yaltaqlığın sonu Şimali Koreyadakı rejimə oxşar bir hakimiyyət növü ilə bitir.

Qazaxıstanda xalq Nursultan Nazarbayevi gerçəkdən də sevir və onu doğrudan da “millət atası” sayır. Bu baxımdan Astananın adı növbəti dəfə dəyişdirilsə, buna etiraz olmayacaq.

Ancaq gerçəklik budur ki, bu cür addımlar, bir şəxsin ilahiləşdirilməsi dünyada heç bir xalqı xoşbəxt etməyib və etməyəcək. İnsan oğlu dərk etməlidir ki, fironları mumiyalamağın xeyri yoxdur.

YENİ MÜSAVAT
N 261 (6582) 24 noyabr 2016

# "Sahibkarlar büdcəyə 101 milyon cərimə ödəməlidir"

## Gələn il əməyin ödənişinə 4 milyard 77 milyon manat ayrılıb; **Qubad İbadoğlu:** "Pensiya və müavinətlərin ödənişinə isə 2 milyard 67,8 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub"

**2017-ci il dövlət büdcəsinin xərclərində əməyin ödənişinə 4 milyard 77 milyon manat, pensiya və müavinətlərin ödənişinə isə 2 milyard 67,8 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu barədə iqtisadçı ekspert Qubad İbadoğlu büdcəni şərh edərkən musavat.com-a bildirib. O qeyd edib ki, bununla yanaşı, Dövlət Sosial Müdafiə Fondundan əmək pensiyalarının ödənilməsinə 3 milyard 213 milyon 820 min manat ayrılacaq: "2017-ci ildə elm xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 2016-cı il səviyyəsində olmaqla 0,7 faiz təşkil edəcək. Növbəti ildə təhsil xərcləri üçün 1733,4 milyon manat vəsait ayrılıb, həmin xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 10,4 faiz təşkil edəcək".**

Ekspertin sözlərinə görə, gələn il üçün elm və səhiyyə xərcləri eyni qalıb, təhsil xərcləri 0,5 faiz çoxdur. Təhsil xərcləri üçün ayrılmış vəsaitin 933,5 milyon manatı və ya 53,9 faizi ümumi təhsil xərclərinin, 551,0 milyon manatı və ya 31,8 faizi təhsil sahəsində digər müəssisə və tədbirlərin, yəni *(dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi ilə bağlı xərclər və bir sıra dövlət proqramları və tədbirlərin maliyyə təminatı və sair),* 137,8 milyon manatı və ya 7,9 faizi məktəbəqədər təhsil xərclərinin, 42,9 milyon manatı və ya 2,5 faizi orta ixtisas təhsili xərclərinin, 41,4 milyon manatı və ya 2,4 faizi ali təhsil xərclərinin *(Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasının, ADA Universitetinin, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının, İ.M.Seçenov adına Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, Bakı Xoreoqrafiya Akademiyasının, Ədliyyə Akademiyasının və digər təhsil müəssisələrinin fəaliyyətinin maliyyə təminatı ilə bağlı xərclər),* 23,1 mln. manatı və ya 1,3 faizi ilk-peşə ixtisas təhsilinin, 3,7 mln. manatı və ya 0,2 faizi əlavə təhsilin maliyyələşdirilməsinə yönəldiləcək.



**2017-ci ilin dövlət büdcəsində səhiyyə xərcləri üçün 745,4 milyon manat vəsait ayrılıb, həmin xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 2016-cı il səviyyəsində olmaqla 4,5 faiz təşkil edəcək:** "Ayrılan vəsaitin 340,9 milyon manatı və ya 45,7 faizi xəstəxanaların, 113,9 milyonu və ya 15,3 faizi poliklinikaların və ambulatoriyaların saxlanılması xərclərinə, 2,6 milyon manatı və ya 0,3 faizi səhiyyə sahəsində digər xidmətlər üzrə xərclərə, 288,0 milyonu və ya 38,7 faizi səhiyyə sahəsində tətbiqi tədqiqatlar və səhiyyə sahəsinə aid edilən digər xidmətlər üzrə xərclərə yönəldiləcək".

**Onun sözlərinə görə, ölkədə pensiya və müavinətlərin, ünvanlı sosial yardımın, məcburi köçkünlərin sosial məsələlərinin və digər sosial tədbirlərin maliyyə təminatı üçün 2017-ci ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərcləri üçün 2053,1 milyon manat vəsait proqnozlaşdırılıb:** "Sosial müdafiə və sosial təminatın maliyyələşdirilməsi üçün nəzərdə tutulan xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 12,4 faiz olacaq".

Növbəti ildə mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyətin maliyyələşdirilməsi üçün nəzərdə tutulan xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,7 faiz olmaqla, mütləq ifadədə 282,6 milyon manat təşkil edəcək.

"Gələn ilin büdcəsinə 101 milyon cərimə və sanksiyalar ödənilməlidir. Bu, yalnız sahibkarların ödəyəcəyi məbləğdir".

**Q.İbadoğlu qeyd edib ki, 2017-ci ilin dövlət büdcəsinin 101 milyon manatını cərimə və sanksiyalar üzrə daxilolmalar təşkil edəcək ki, onun da 88,1 fazi və ya 89 milyon manatı büdcə qanunvericiliyinin pozulmasına görə daxilolmlardan formalaşacaq:** "Ondan 39 milyon 899 min manatını hüquqi şəxslərin mənfəət (gəlir) vergisi, 27 milyon 423 min manat ını əlavə dəyər vergisi, 5 milyon 30 min manatını fiziki şəxslərin gəlir vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar , 4 milyon 986 min manat sadələşdirilmiş vergi, yerdə qalan hissəsini isə digər vergilər üzrə maliyyə sanksiyalarından daxilolmalar təşkil edəcək".

**Q.İbadoğlunun fikrincə, iqtisadi təhlil işində cərimə və sanksiyalar proqnozlaşdırılmır:** "Belə qiymətləndirmələr zamanı cərimə və sanksiyalar üzrə faktiki daxilolmalar göstəricisindən istifadə olunur. Çünki bu mənbədən nə qədər vəsait daxil olacağını əvvəlcədən proqnozlaşdırmaq mümkün deyil. Hətta proqnozlaşdırma aparılarsa, onun dəqiq icrasına necə nail olmaq olar? Axı əvvəlcədən kim necə müəyyənləşdirə bilər ki, sahibkar vergi qanunveriicliyini mütləq pozacaq və ondan da bu qədər cərimə və sanksiyalar alınacaq. Bəlkə növbəti il əksər sahibkarlar büdcə qarşısında öhdəliklərini tam və vaxtında yerinə yetirdi, qanunvericiliyi pozanlar barəsində isə vergi orqanları bilməyərəkdən və ya bilərəkdən məlumatsız oldu. Belə olacağı təqdirdə vergi və digər dövlət orqanları büdcə qarşısında cərimə və sanskiyalar üzrə öhədlikləri necə yerinə yetirəcək? Burdan çıxan ilkin nəticə odur ki, istənilən halda cərimə və sanksiyalar olacaq və bunu da necə fəaliyyət göstərməsindən asılı olmayaraq sahibkarlar ödəmək məcburiyyətində qalacaq".

❑ RÖYA

# Mənzil bazarı çökür

## Ekspertlər bildirirlər ki, alqı-satqının dollarla həyata keçirilməsi aktuallığını itirib, mənzillərin qiyməti isə ucuzlaşır

**Ölkənin mənzil bazarında qeyri-sabitlik hökm sürür. Dollar-manat qarşıdurmasından, həmçinin manatın dəyər itirməsi səbəbindən idxal olunan tikinti materiallarının bahalaşmasından yaranan səbəblər daha ciddidir. Ekspertlər bildirirlər ki, ilin əvvəli ilə müqayisədə mənzillər xeyli ucuzlaşıb. Növbəti devalvasiya ehtimallarından da mənzillərin bahalaşacağı gözləntisi çox deyil.**



**Ekspert Ramil Osmanlı** musavat.com-a bildirib ki, mənzillərin qiymətində ilin əvvəlindən başlayaraq azalma müşahidə olunub: "Bu ilin əvvəlindən bu yana olan göstəricilərdə 20 faiz qiymət azalması müşahidə olunur. Bu, manatla olan qiymətlərə aiddir. Dollar ifadəsində qiymət azalmasından, yaxud artımından danışmaq öz aktuallığını itirib. Aylıq göstəricilərə baxsaq, təqribən fevral-may aylarından fərqli olaraq sentyabr-oktyabr aylarında aylıq göstəricilər 1,2-1,5 faiz azalıb. Bütövlükdə daşınmaz əmlak bazarında hazırkı vəziyyəti qeyri-qənaətbəxş hesab edirik. Bu, həm özünü əqdlərin dinamikasında göstərir, həm bazara müraciət edənlərin sayında göstərir, həm alqı-satqı əməliyyatlarının kəskin şəkildə azalmasında göstərir. Nəticə etibarı ilə ilin yekununa doğru indidən konkret fikir söyləmək olmaz. Bir ay vaxt qalıb. Konkret deyə bilərik ki, ilin sonuna doğru daşınmaz əmlak bazarında hər hansı ciddi əhəmiyyətli bir dəyişiklik müşahidə olunması ehtimalı yoxdur, gözlənilmir. Çünki onun üçün hər hansı bir iqtisadi səmərə mövcud deyil".

**Ekspertin sözlərinə görə, dolların manata nisbətinin möhkəmlənməsi tikinti materialları və digər idxal məhsullarında qiymətləri artırsa da, bu, hələ ki özünü mənzil qiymətlərində o qədər də göstərmir:** "Yəni ikinci devalvasiyadan sonra tikinti materiallarının qiymətlərinin artımı müşahidə olundu. Amma hazırda bu proses sabitləşib. Yəni ümumi mənzərə bundan ibarətdir. Konyukturanın dəyişdirilməsi istiqamətində bazarda müəyyən cəhdlər oldu. Konkret desək, mənzillərin sövdələşmələrinin dollarla aparılması istiqamətində, təklif olunan mənzillərin və digər daşınmaz əmlak subyektlərinin dollar ifadəsində təklifi formasında təkliflər oldu. Amma bu, bir nəticə vermədi. Təqribən 2008-2009-cu illərdən fərqli olaraq, bu dəfə təklif nəticə vermədi. Yenidən müraciətlərin, sövdələşmələrin manatla həyata keçirilməsi prosesi baş verdi".

**Ekspert Rəşad Əliyev isə bildirib ki, daşınmaz əmlak bazarına təsir edən qısamüddətli və ortamüddətli amillər hazırda neqativdir.** "Ortamüddətli təsir hazırda makroiqtisadi vəziyyətlə bağlıdır. Burada normallaşma gözlənilmir. Amma neftin qiymətinin əhəmiyyətli artımı daşınmaz əmlak bazarında gözlənilməzliyə və artıma səbəb ola bilər",- deyə ekspert bildirib. Onun fikrincə, qısamüddətli amillər bir-birinə zidd təsirlər göstərir: "Manatın ucuzlaşması bazar iştirakçılarında çaşqınlıq yaradır". Onun sözlərinə görə, mənzillərin qiymətinin manatla ifadədə azalması ehtimalı azdır.

❑ RÖYA

# Dövlət qurumlarındakı cinayətkar şəbəkələr və kriminal jarqonlar...

## Müxalifət baş verənləri yalnız seyr edir: "Düşünmürəm ki, müxalifət bu baş verənlərdən hakimiyyətə qarşı istifadə etməlidir"

**Rabitə və keçmiş MTN çetesinin üzə çıxan cinayətləri, qara para dövriyyəsi haqda danışılarkən kriminal aləmin jarqonlarından istifadə edilir. Məsələn, "kotyol", "obşak" və s. Nazir müavinlərindən biri ifadəsində nazir Əli Abbasovun "obşiy katyol"dan ona ayda 50 min manat "paket" verdiyini, başqa biri 30 min manat "paket" aldığını deyir. Bəziləri isə daha böyük məbləğli rüşvət faktlarının üstünü açıb. Məsələn, BTRİB-in keçmiş rəisi Beytulla Hüseynov ifadəsində deyib ki, nazir müavini İltimas Məmmədova ev tikintisi üçün 1,5 milyon manat verib. Ümumiyyətlə, MTN işi ilə bağlı məhkəmə proseslərində də dəhşət saçan məlumatların yer aldığı ifadələr verilir. O ifadələr ki, hakimiyyətin ictimai nüfuzuna şübhəsiz zərbə vurur. Yəni vəziyyət o həddə çatıb ki, cinayət dosyeləri kriminal jarqonlara bürünüb. Hansı ki, uzun illərdir biz hüquqi dövlət quruculuğundan danışırıq...**

Müxalifət isə bu faktordan hakimiyyətə qarşı istifadə etmir. Məhkəmələrdə ortaya çıxan dövlət vəsaitlərini talama faktları ilə bağlı dəyirmi masalar təşkil etmək, hakimiyyətdən həmin ifadələrlə bağlı ciddi araşdırmalar aparılması tələb etmək kimi addımlar da atılmır.

Bu barədə "Yeni Müsavat"a açıqlamasında **AMİP-in sədr əvəzi Arzuxan Əlizadə** bildirdi ki,

"MTN işi" ilə əlaqədar keçirilən məhkəmə proseslərindən yazılan reportajları, o cümlədən də istintaqa verilən ifadələrin mətbuata sızan hissələrini oxuduqca həqiqətən də şok effekti verə biləcək faktlarla rastlaşırıq: "Həqiqətən də ölkənin milli təhlükəsizliyinə sorumlu olan bir təşkilata rəhbərlik etmiş insanların tam 10 il ərzində əslində dövlətin dayaqlarını sarsıtmaqla məşğul olduğunun fərqində olduqca, bütün baş verənlərdən dəhşətə gəlməmək mümkün deyil. Bu adamlar cinayətkar birliklər yaratmaqla eyni zamanda biznes strukturlarına,



Arzuxan Əlizadə

həmçinin bank və maliyyə sisteminə elə öldürücü zərbə vurublar ki, bunun fəsadlarını bu gün hər birimiz hiss edirik və yaxın gələcəkdə həmin acı nəticələri aradan qaldırmaq da çox çətin olacaq. Əlbəttə ki, bütün baş verənlər dövləti cinayətlər olmaqla yanaşı, ilk növbədə mövcud iqtidarın nüfuzuna ciddi zərbədir. Odur ki, hakimiyyət həmin şəxslərin barəsində çox sərt hökmlər çıxarılmağında maraqlı olmalıdır. Hələ də həbs edilməyənlər isə həbs edilməlidir. Çünki dövlətə bu qədər zərər vurmuş adamlar cəzasız buraxılmamalıdır. Amma hesab etmirəm ki, müxalifət bu baş verənlərdən hakimiyyətə qarşı istifadə etməlidir. Əvvəla, baş verənlərlə əlaqədar istintaq və məhkəmə araşdırmaları davam edir və bu dönəmdə atılan addımlar həmin orqanların işinə müdaxilə kimi qiymətləndirilə bilər. İkincisi, bu ölkə iqtidarlı müxalifətli hamımızın vətənidir. Baş verənlərə öz məqsədlərimiz üçün deyil, ümumilikdə ölkəmizin inkişafı üçün nə edə bilərik prizmasından yanaşsaq daha doğru olar. Hakimiyyət isə törədilmiş cinayət əməllərinin obyektiv araşdırılmasında maraqlı olmalı, baş verənlərdən ciddi nəticə çıxarmalı və yaranmış vəziyyətdən çıxış yollarını müxaliflərlə birlikdə müzakirə etməkdən çəkinməməlidir. Hesab edirəm ki, bunun alternativi yoxdur".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 261 (6582) 24 noyabr 2016

# Ağ Evin yeni sahibinin 100 günlük vədi - o, Vaşinqtondakı bataqlığı quruda biləcəkmi?

## Şahin Cəfərli: "Tramp dövründə viza və sərhəd-buraxılış rejimlərinin sərtləşdirilməsini gözləmək mümkündür"

**"ABŞ prezidenti Donald Trampın 100 günlük planı prezidentin səlahiyyətləri çərçivəsində olan, onun qərarları ilə həyata keçirilə bilən işləri əhatə edir. Yəni söhbət qanun layihəsi şəklində irəli sürülməyəcək və Konqresin təsdiqinin tələb olunmadığı addımlardan gedir". Politoloq Şahin Cəfərli bu fikirləri Trampın 100 günlüklə bağlı açıqladığı planları "Yeni Müsavat"a şərh edərkən bildirdi.**

**Ekspert xatırlatdı ki, D.Trampın seçkiqabağı kampaniya zamanı ən çox gündəmə gətirdiyi problem miqrant məsələsi idi:** "Onun prezidentliyi dövründə bu problemə xüsusi diqqət ayrılacağı şübhəsizdir. Qeyri-leqal və kriminallaşmış miqrantların ABŞ-dan deportasiyası prosesi başlaya bilər. Təbii ki, bu məsələdə ştatlar da söz sahibi olacaq. Məsələn, ABŞ-ın ən inkişaf etmiş və liberal ştatlarından olan Kaliforniya Trampın bu planına isti baxmır. Tramp dövründə viza və sərhəd-buraxılış rejimlərinin sərtləşdirilməsini gözləmək mümkündür, artıq Suriya, Əfqanıstan, İraq kimi ölkələrdən olan qaçqınların ABŞ-a girişi elə də asan olmayacaq". **Lakin Ş.Cəfərli vurğuladı ki, Tramp son videomüraciətində Meksika sərhədinə divar hörmək ideyasından söz açmayıb:** "Bu isə onun prezident kreslosuna əyləşdikdən sonra daha realist və praqmatik siyasət yeridəcəyinə işarə kimi qiymətləndirilir. Digər önəmli məsələ ABŞ-ın qlobal ticarət anlaşmalarından çıxmasıdır. Tramp bu tip transmilli anlaşmaların ABŞ şirkətlərini istehsalı başqa dövlətlərə köçürməyə sövq etdiyini və ölkədə işsizliyə səbəb olduğunu düşünür".

**Politoloq bildirdi ki, yeni prezidentin ilk 100 günündə ABŞ-ın Trans-Sakit Okean tərəfdaşlığında iştirakını dayandırdığını elan edəcəyi gözlənilir:** "Daha sonra ABŞ çox güman ki, Şimali Amerika azad ticarət anlaşması - NAFTA-dan ayrılacaq. İmzalanması planlaşdırılan Transatlantik ticarət və investisiya müqaviləsi isə böyük ehtimalla arxivə göndəriləcək. Qlobal miqyaslı anlaşmaların yerinə Tramp ikitərəfli ticarət razılaşmalarına üstünlük verəcək və xaricə köçmüş istehsalı geri qaytarmağa çalışacaq. Tikinti şirkətlərinə yeni infrastruktur layihələri həyata keçirmək üçün kredit veriləcək. D. Trampın enerji sektorunu dirçəltmək planları isə dünya enerji bazarına ciddi təsir göstərə bilər. O, ABŞ-da neft-qaz hasilatını artırmağa mane olan əngəlləri aradan qaldıracağını bəyan edib. Məlumdur ki, ABŞ demokratları ekologiya və ətraf mühit məsələlərinə böyük önəm verirlər, bu səbəblə Obama dövründə dəniz şelfində neft hasilatı qadağan edilib, eləcə də alternativ, "yaşıl" enerjinin inkişafına xüsusi diqqət yetirilib, kömür istehsalı arxa plana atılıb. Tramp bütün bu qadağaları ləğv edəcəyini, neft, qaz və kömür istehsalını artıracağını, bunun sayəsində milyonlarla yeni iş yeri yaradacağını açıqlayıb. Bu məsələ respublikaçıların seçki platformasında da əksini tapıb".




**Ş.Cəfərli platformadakı aşağıdakı məqamı da "Yeni Müsavat"ın oxucularının diqqətinə çatdırdı:** ""Enerji sahəsində dominantlıq Birləşmiş Ştatların strateji iqtisadi və xarici siyasət məqsədi elan olunacaq. ABŞ bütün OPEC ölkələrindən 1,5 dəfə çox neft ehtiyatına malikdir. Biz Rusiya, İran, Səudiyyə Ərəbistanı və Qatarın birlikdə malik olduğu ehtiyatlardan daha çox təbii qaz ehtiyatlarına sahibik, Rusiyadan üç dəfə çox kömür ehtiyatımız var. Bizim federal hökumətə aid torpaqlarda toxunulmamış neft-qaz ehtiyatımız 50 trilyon dollar həcmində qiymətləndirilir". Bu ambisiyalı vədin nə dərəcədə yerinə yetiriləcəyini indidən demək çətin olsa da, bir şey aydındır ki, D.Tramp dövründə ABŞ-ın neft-qaz hasilatı artacaq, bu isə dünya enerji bazarında qiymətlərin yüksəlməsinin qarşısını alacaq".

**Yeni prezident siyasi korrupsiya ilə mübarizə istiqamətində də konkret addımlar atacağını bildirib. Ş.Cəfərli xatırlatdı ki, Trampın seçkiqabağı kampaniya zamanı sıx-sıx səsləndirdiyi məşhur vədi var: Vaşinqtondakı bataqlığı qurutmaq:** "Tramp dövlət işindən ayrılacaq məmurlara 5 il ərzində lobbiçiliklə məşğul olmaq qadağası tətbiq ediləcəyini və məmurların xarici ölkələrin xeyrinə lobbiçiliklə məşğul olmasına ömürlük yasaq qoyulacağını açıqlayıb. D.Tramp kibertəhlükəsizlik sahəsinə də ciddi əhəmiyyət verir. Bu məsələ seçki kampaniyası dövründə xüsusi aktuallıq qazandı, Demokrat Partiyasının serverlərinə haker hücumları nəticəsində bir çox gizli yazışmalar üzə çıxdı və "WikiLeaks" tərəfindən yayıldı. ABŞ kəşfiyyat strukturları bu hücumların Rusiya tərəfindən həyata keçirildiyinə əmindir. Seçkiqabağı dövrdə Tramp bu məsələdən öz rəqibi Hillari Klinton əleyhinə istifadə etdi, lakin indi o, problemə dövlət adamı ciddiyyəti ilə yanaşır. Tramp bildirib ki, Pentaqona və ordu rəhbərliyinə ABŞ-ın vacib infrastrukturunun kiberhücumlardan müdafiəsi üçün geniş plan hazırlamaları barədə tapşırıq verəcək".

❑ **Cavid TURAN**

# "Dünyada demokratiya tənəzzülə uğrayır"

## Sərdar Cəlaloğlu: "Qərbdə demokratiya zəiflədiyinə görə milli ideologiya inkişaf edir"


Sərdar Cəlaloğlu

**"Dünyada baş verən bu hadisələr əsas etibarilə demokratiyanın geriləməsi ilə bağlıdır. Çox təəssüf ki, son illər bütünlükdə dünyada, istər Amerikada, istər Avropada çox ciddi demokratik geriləmələr müşahidələr olunur. O yerdə ki, demokratiya geriləyir, onun yerini millətçilik və yaxud sinfi təmayüllər, digər ideologiyalar tutur".**

Bu fikirlər **ADP sədri Sərdar Cəlaloğluna** məxsusdur. Partiya sədri dünyanın bir sıra ölkələrində liberal dəyərlərə malik şəxslərin hakimiyyətləri sağ millətçilərə uduzmasını "Yeni Müsavat"a şərh edərkən bildirdi ki, Avropa və Amerika iqtisadi, həmçinin geopolitik maraqları aktiv şəkildə üstün tutduğuna görə demokratik geriləmə davam edir: "Dünyada, ümumiyyətlə, demokratiya tənəzzülə uğrayır. Bizim kimi ölkələrdə demokratiya boğulur, amma demokratik ölkələrdə demokratiyanın tənəzzülü prosesi gedir. Əslinə baxsan, Avropada bu, gözlənilən bir haldır. Çünki Avropa nə qədər özündən kənarda demokratiyanı dəstəkləmirsə, bir o qədər də özündə demokratiya zəifləyir. Çünki dünyada demokratiyaya dəstək vermək həmin xalqın özünün də demokratik vərdişlərini gücləndirir. Bu iki proses bir-biri ilə bağlıdır. Ona görə də mən hesab edirəm ki, dünyada baş verən bu hadisələr demokratiyanın dəstəklənməməsi, maddi maraqların mənəvi dəyərlərdən üstün tutulması ilə bağlıdır. Təbii ki, bu da ən müxtəlif antidemokratik ideologiyaların meydana çıxmasına gətirib çıxarır".

**Azərbaycana gəldikdə, S.Cəlaloğlu məsələyə fərqli yanaşmanın tərəfdarıdır:** "Bizim kimi, milli azadlıq hərəkatından keçən ölkələrdə milli ideologiyanın meydana çıxması, əksinə, demokratiyaya cəhdin əlamətidir. Maraqlıdır ki, Qərbdə demokratiya zəiflədiyinə görə milli ideologiya inkişaf edir, bizim kimi antidemokratik ölkələrdə isə milli ideologiya demokratiyaya keçid üçün inkişaf edir. Çünki Məhəmməd Əmin Rəsulzadənin dediyi kimi, xalqlar azadlığı dadmaq istəyirlər. Ona görə də bizim millətçiliyimizlə Avropanın millətçiliyi tamamilə fərqlənir. Avropanın millətçiliyi daha çox irqçiliyə meyl edir. Tutaq ki, bizdə siyasi millətçilikdir, onlarda etnik millətçilik. Fərqi budur. İki cür millətçilik var: bir var sən dövlət, cəmiyyət yaratmaq istəyirsən. Amma irqi millətçilikdə başqa millətin nümayəndələrinə qarşı fərqli yanaşma olur, ona başqa millətin nümayəndəsi kimi yuxarıdan aşağı baxılır. Azərbaycanda təbii ki, millətçilik inkişaf edəcək, xalqımız tam azad olana qədər bu, bizim haqqımızdır. Amma Avropada baş qaldıran irqi millətçilik Azərbaycanda olmayacaq".

ADP sədri deyir ki, burada tarixi ənənələr də öz sözünü deyir: "Birincisi, burada tarixi təcrübə faktoru var. İkincisi də tarixin qoyduğu vəzifələrdən asılı olaraq bu məsələlər ortaya çıxır".

❑ **Cavid TURAN**



# NATO-Türkiyə münasibətləri qırılmayacaq

## Türkiyə və Qərb arasında "sular nədən durulmur" sualının cavabı

**NATO baş katibi Yens Stoltenberq deyib ki, Türkiyə hökumətinin bu qurumun ümumi müdafiə konsepsiyası olan 5-ci maddəni və ümumilikdə qurumun birliyini zəiflədəcək hansısa addımı atacağına inanmır. Türkiyənin "Hürriyet" qəzetinə müsahibə verən NATO baş katibi deyib ki, rəsmi Ankaranın Rusiyadan S-400 hava hücumundan müdafiə sistemi almasına prinsip olaraq etiraz etməsələr də, alyans ölkələrinin vahid müdafiə sistemi olduğu üçün koordinasiya təmin olunması şərtdir. Bununla da faktiki olaraq NATO-nun bu sistemlərin alınmasına isti baxmadığı üzə çıxıb. Son zamanlar Türkiyə və AB arasında yaranmış gərginliklə bağlı suallara cavab olaraq NATO baş katibi bildirib ki, alyans Türkiyə və Avropa Birliyi arasında danışıqlar prosesinə qarışmaq istəmir.**

Qeyd edək ki, NATO-nun 5-ci maddəsi alyansın kollektiv müdafiə hüququndan bəhs edir. Bu maddəyə əsasən NATO-ya üzv ölkələrdən hər hansı birinə hücum olaraq, BMT-nin də 51-ci maddəsinə əsaslanaraq kollektiv müdafiə taktikası həyata keçirə bilərlər. NATO baş katibinin Türkiyənin Şanxay Əməkdaşlıq Təşkilatına üzvlüklə bağlı bu maddəni xatırlatması diqqət çəkib. Mütəxəssislərə görə, NATO baş katibi bununla Türkiyənin müttəfiq dəstəyini itirəcəyinə işarə edir. Eyni zamanda açıq şəkildə, diplomatik dildə NATO-nun bu mövzulara soyuq yanaşdığını qeyd edib.

Məsələ ondadır ki, Türkiyə hakimiyyətinin NATO və Qərb ölkələrindən istədiyi dəstəyi ala bilməməsi müşahidə olunur. Xüsusən də son illərdə Yaxın Şərqdə baş verən proseslərdə bu, açıq şəkildə müşahidə olundu. Görünən odur ki, Türkiyə Yaxın Şərq, o cümlədən Suriya və İraqda baş verən proseslərdə NATO və ABŞ-la ortaq strategiyanı həyata keçirmir. Mövqelərdə ciddi fərqlər var. Xüsusən də kürd məsələsində, o cümlədən silahlı qruplarla iş mövzusunda fərqli yanaşma daha aydın görünməyə başladı.

15 iyul qiyamından sonra isə Türkiyə Qərb müttəfiqlərinə ümid bağlamadığını açıq şəkildə bəyan etdi. Ancaq bütün bu soyuq münasibətlər və Türkiyənin Alyansa alternativ axtarışlarının ciddi bir qərara səbəb olacağını gözləmək doğru olmazdı. Məsələ ondadır ki, Türkiyə artıq 60 ildən çoxdur NATO üzvüdür, təşkilatın Şərqdə əsas gücü, ikinci sayca ən böyük ordusudur. Şimali Atlantika Alyansının Yaxın Şərqə "qapısı" məhz Türkiyədir. Bu, uzun illər ərzində formalaşmış, çox dərinə işləmiş müttəfiqlik əlaqələrini bir gündə pozmaq, bu əlaqələri qırmaq və alternativ gücə stavka etmək faktiki olaraq mümkün deyil. Üstəlik, Türkiyənin yerləşdiyi coğrafi məkan, etnik və siyasi problemlər, davam edən terror və münaqişələr onun indiki vaxtda mövqe dəyişməsinə, NATO-dan imtina edib başqa bir bloka qoşulmasına imkan vermir.

Görünür, bunu NATO rəhbərliyi də bilir. Ancaq Ankaranın bu şəkildə təzyiq cəhdləri də səbəbsiz deyil. Türkiyə NATO-nun üzvü olaraq daha çox hərbi və siyasi dəstək almaq istəyir. Daha dəqiqi, Yaxın Şərqə siyasətində NATO-nun güc mərkəzi kimi onun hesablaşılmasını istəyir. Ancaq bu istək o qədər də qarşılıq tapmır. Çünki ABŞ və digər iri NATO ölkələrinin Yaxın Şərqdə özəl maraqları var, üstəlik, Türkiyənin güc mərkəzi kimi çıxış edib Yaxın Şərqdə siyasi qərarlara təsir edəcək gücə çevrilməsində maraqlı deyillər. NATO-nun Türkiyə üçün nəzərdə tutduğu rol isə tamam başqadır. NATO Türkiyəni Yaxın Şərqdəki "qalası" olaraq görür, nəinki güclü, hərbi-siyasi proseslərə təsir edən böyük güc. Bu səbəbdən də Türkiyənin son illərdə apardığı müstəqil siyasət, iddialı strategiya NATO və Qərbdə dəstək görmür. Ankara isə buna qarşı NATO və Qərbə bu şəkildə təzyiq etməyə çalışır.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 261 (6582) 24 noyabr 2016

# İslam Kərimovun siyasi varis planının olmamasının sirri

## Politoloq: "Onun yəhudi həyat yoldaşından dünyaya gələn iki qızı fərsiz çıxdı"



**Dekabrın 4-də Özbəkistanda prezident seçkiləri keçiriləcək. Ölkəyə 27 il fasiləsiz prezidentlik edən İslam Kərimovun bu il sentyabrın 2-də ölümündən sonra Özbəkistan siyasi qeyri-müəyyənliyə yuvarlanıb. Prezident vəzifəsini müvəqqəti olaraq baş nazir Şövkət Mirziyəyev icra etsə də, İslam Kərimovun dövründəki ictimai-siyasi sabitlik artıq yoxdur.**

4 dekabrdan sonra vəziyyətin yaxşılaşacağı da bəlli deyil. 27 il avtoritar rejimin hökm sürdüyü Özbəkistanda bu rejimi quran və idarə edən İslam Kərimovun özündən sonrakı dövr üçün siyasi varis planının yoxluğu, siyasi varisini müəyyənləşdirmədən dünyadan getməsi qeyri-müəyyənliyi yaradan ciddi faktor sayılır.

**Politoloq Qabil Hüseynli** hesab edir ki, İslam Kərimovun 27 il hakimiyyətdə olmasına rəğmən özünə siyasi varis hazırlamamasının bir neçə səbəbi var. Birinci səbəb odur ki, avtoritar liderlərdə müşahidə olunan ölümsüzlüyünə inam hissi, ola bilsin, İslam Kərimovda da yaranıbmış. İslam Kərimov kimi avtoritar liderlər hesab edirlər ki, onlar ancaq hakimiyyət üçün yaranıblar və hakimiyyət də onların çox uzun müddət yaşamasına təminat verəcək: "İslam Kərimov da son zamanlar özünəvurğunluq xəstəliyinə tutulmuş bir şəxsiyyət idi. Ola bilsin, ölümünün baş verəcəyinə ya inanmırdı, ya da çox az inanırdı. Ona görə də siyasi varis hazırlamağa ehtiyac duymurdu".

**Politoloq qeyd etdi ki, İ.Kərimovun siyasi varis hazırlamamağının köklü səbəblərindən biri də o ola bilərdi ki, onun həyat yoldaşı yəhudi idi və həmin qadından dünyaya gələn iki qız övladı isə fərsiz övladlar çıxdı. Onlara siyasi hakimiyyət etibar eləmək olmazdı:** "İslam Kərimov yaxşı bilirdi ki, bu qızları öldükdə mövcud olan klanlar və oliqarxlar qısa müddətdə ya hakimiyyətdən devirəcəklər, ya da öz təsirləri altına salacaqlar. Onun qızı Gülnarə haqqında dəfələrlə yayılan müxtəlif xəbərlər də sübut edir ki, bu qızları hakimiyyətə hazırlamaq və hakimiyyəti ötürmək çətin məsələ idi. Bunu çox güman ki, İslam Kərimov özü də başa düşübmüş. Kərimovun ətrafı məddahlarla dolu idi və bu məddahlardan bəziləri ona sadiq olacaqlarını və onun siyasi xəttini davam etdirəcəklərini inandıra bilmişdi. İndi prezidentliyə namizəd olan baş nazir Şövkət Mirziyəyev də onlardan biridir. Ola bilsin ki, İslam Kərimov bir müddət də yaşasaydı siyasi varis planını hazırlayacaqdı və həmin məddahlardan birini siyasi varisi olaraq seçəcəkdi. Lakin beyin qanaması və ölüm onu qəfil yaxaladı. Özbəkistandakı siyasi proseslər isə qeyri-müəyyənliklə baş-başa qaldı".

**Q.Hüseynli qeyd etdi ki, İslam Kərimovun ölümündən sonra prezident səlahiyyətlərini icra edən baş nazir Şövkət Mirziyəyev prezident seçkilərində qalib gələcək. Amma onun möhkəm hakimiyyət qura biləcəyi və Özbəkistanda ictimai-siyasi sabitliyi təmin edə biləcəyi ciddi suallar doğurmaqdadır. Çünki tayfa və qəbilə şüurunun hökm sürdüyü cəmiyyətdə müxtəlif oliqarxik qruplaşmalar seçkiöncəsi hərəkətə keçib:** "Belə bir cəmiyyətdə demokratiyanın qurulması mümkün deyil. Çünki demokratik təsisatlar, demokratik ənənələr yoxdur. Bir neçə siyasi partiya formal olaraq mövcud olsa da hamısı iqtidaryönlüdür. Ona görə də çoxpartiyalı siyasi sistemin olmamağı da orada demokratiya qurulmasına imkan vermir. Seçki klanların mübarizəsi şəraitində keçəcək. Bu səbəbdən də möhkəm siyasi hakimiyyətin bərqərar edilməsi, ictimai-siyasi sabitliyin bərqərar edilməsi işi hələ uzun vaxt alacaq".

❑ Etibar SEYİDAĞA




# Harada gəldi namaz qılmaq düzgündürmü?

## Dini ekspert: "Namaz üçün ən yaxşı məkan məsciddir"

**İslam dininin bizə buyurduğu 5 şərtdən biri də namazdır. Namaz hər gün beş vaxtda Allahın hüzurunda dayanıb rükut və səcdə ilə ibadət etməkdir. Ancaq namaz qılan insanlar bəzən yolda olarkən, alış-veriş zamanı, uzaq yola səfər zamanı namazın vaxtını keçirə bilərlər.**

Müsəlman ölkələrində, eləcə də Azərbaycanda insanların parkda, küçədə, avtobusda namaz qıldığının şahidi olmuşuq. Bir çox iş yerlərində, ticarət mərkəzlərində xüsusi namaz otaqları olur. Ancaq namaz otağı olmadığı halda harda gəldi namaz qılmaq düzgündürmü?

Din mütəxəssislərə görə, namazı 7 yerdə - məzarlıqda, qəbirlərin arasında, heyvan saxlanılan yerdə (tövlədə və s.), yolların kəsişməsində (yol qovşağında), hamamda, sallaqxanalarda, Müqəddəs Kəbənin damında və s. qılmaq olmaz.

Dini ekspert Kənan Rövşənoğlu bildirdi ki, müsəlman namazı paklıq, təmizlik və halallıq olan hər yerdə qıla bilər: ""(Allah) bizim üçün bütün yer üzünü səcdə yeri qərar vermişdir" (Səhih Müslim). Namaz İslam dinində əsas ibadətlərdən biri və birincisidir. Müsəlmanlar gündəlik və müəyyən xüsusi hadisələrlə bağlı Allaha ibadət edir - namaz qılırlar. Xüsusən də gündəlik ibadətlər var, Quran və hədislərə əsasən namaz qılmaq vacib olan insanlar günün müəyyən vaxtlarında 5 dəfə ibadət edir - namaz qılırlar. Müsəlman namazı hər yerdə (təmizlik, paklıq, halallıq - yəni sahibinin icazə verməsi kimi şərtlər yerində olarsa) qıla bilər. Təbii ki, namaz üçün ən yaxşı məkan məsciddir. Məscid, yəni səcdə olunan yer müsəlmanların ibadət üçün toplandıqları məkandır, xüsusən də həftənin cümə günləri müsəlmanların Cümə namazı üçün məscidə getməsi önəmlidir. Amma məscidə gedə bilməyənlər, işdən imkanı olmayan, məscid uzaqda olarsa, fiziki imkanları olmazsa namazı evdə, iş yerində, hətta küçədə qıla bilərlər. Amma təbii ki, bu zaman yuxarıda qeyd etdiyimiz kimi, başqa insanların haqlarını tapdamaq, manelər törətmək olmaz. Çünki insanların haqqını yemək Allaha ibadətdən daha ağır günahdır. Bu səbəbdən də küçədə və ictimai yerlərdə namaz qılanlar insanlara çətinlik yaratmamalı, özəl mülkdə ibadət edirlərsə, sahibindən icazə almalıdırlar".

❑ Günel MANAFLI

# Bakının türkmən məsələsindəki müəmmalı susqunluğu

## Ankara İraq türkmənləri mövzusunu kompleks olaraq həll etməyə çalışır





**İraqda Mosul şəhərinin İŞİD-dən təmizlənməsi əməliyyatının 4-cü mərhələsi başlayıb. Bu barədə Yaxın Şərq Xəbər Agentliyi məlumat yayıb. Hazırda Mosulun qərbində möhkəmlənən könüllü hərbi birləşmələr əməliyyatın 4-cü mərhələsini başladıb. Qeyd edək ki, ötən həftə Telafer şəhərinin hava limanı məhz əməliyyatın 3-cü mərhələsi çərçivəsində azad edilmişdi.**

Könüllü hərbi birliklərlə bağlı Türkiyə və ərəb ölkələri ilə İraq hökuməti arasında fikir ayrılığı var. Ankara bu qüvvələrin Mosul əməliyyatına qatılmasına qarşıdır. Hazırda bu mövzuda fikir ayrılıqları davam edir və bu səbəbdən də Telafer ətrafında möhkəmlənən könüllü hərbi qüvvələr (Həşdi Şabi) İraq baş nazirinin şəhəri azad etmək üçün müvafiq əmrini gözləyirlər. Yeri gəlmişkən, Telafer türkmən şəhəridir və bu şəhərlə yanaşı bütövlükdə bölgədə çoxlu sayda İraq türkməni yaşayır. Ancaq 2,5 milyonluq türkmən qrupunun gələcəyi sual altındadır.

Qeyd edək ki, Mosul və Şimali İraqda davam edən hərbi əməliyyatların gedişində ən çox əziyyət çəkən türkmənlərin durumu hələ də ağır olaraq qalır. Faktiki olaraq hazırda İraq türkmənləri şimalda kürdlərin, cənubda isə Bağdaddakı mərkəzi İraq hökuməti arasında qalıb. Faktiki olaraq silahlı gücü olmayan türkmənlər regionda baş verən proseslərə təsir edə bilmir. Üstəlik, son iki ildə davam edən ağır müharibə və terror nəticəsində ən çox evlərini itirən etnik qruplardan biri də türkmənlərdir. Bundan başqa, indi türkmənlərin bir hissəsi Ərbildə yerləşən kürd administrasiyası ilə əməkdaşlıq etdiyi halda, digər bir qrup mərkəzi Bağdad hökuməti ilə birgə fəaliyyət göstərir.

Daha bir çətin vəziyyət türkmənlərin daha əvvəl çoxluqda olduğu bölgələrin kürdlərin əlinə keçməsidir. Ötən həftə Bakıya gələn İraq Türkmən Cəbhəsi sözçüsü Əli Mehdi türkmənlərə dəstək lazım olduğunu, bu dəstək olarsa, İraqda bir türkmən muxtariyyətinin qurula biləcəyini demişdi. Ancaq hələlik bu dəstək yoxdur. Türkmənlərin fikrincə, beynəlxalq siyasi dəstək olaraq, BMT-nin işə qarışması ilə İraqda türkmən muxtariyyəti qurmaq mümkündür. Ancaq bunun üçün ciddi beynəlxalq dəstək, türkmənləri müdafiə edən dövlətlər olmalıdır. Belə dövlətlər isə ilk növbədə türk respublikaları - Türkiyə, Azərbaycan, Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan ola bilər.

Lakin maraqlıdır ki, İraq türkmənləri məsələsində digər türk dövlətlərinin fəallığı hiss olunmur. Orta Asiya ilə müəyyən mənada məsafə uzaqlığı olsa da Azərbaycan hər baxımdan İraq türkmənlərinə yaxındır. Həm dil, ləhcə, həm də ənənələr, mədəniyyət, ədəbiyyat, musiqi kimi sahələrdə İraq türkmənləri hətta qonşu Türkiyədən daha çox Azərbaycana yaxındır. Bu səbəbdən də hətta sovet dövründə belə Azərbaycanla Kərkük arasında mədəni bağlar qorunub saxlanıb.

Bu mənada Azərbaycan hökumətinin İraq türkmənləri mövzusunda susqunluğu müəyyən mənada şübhəli görünür. Azərbaycan həm İraq, həm də indi o bölgədə güclü təsirə malik İranla yaxşı əlaqələrə sahibdir. Məhz bu əlaqələrdən Bakı türkmənlərə dəstək vermək üçün istifadə edə bilər. Lakin göründüyü kimi, Bakı hələlik bu mövzularda çox sakitdir.

Bizə gələn məlumatlara görə, bu sakitliyin arxasında konkret səbəb var. Məsələ ondadır ki, Bakının İraq türkmənləri mövzusuna məsafəli yanaşmasının əsas səbəbi Türkiyə ilə olan razılaşmadır. Daha doğrusu, Türkiyənin Azərbaycandan istəyidir. Belə ki, əldə etdiyimiz bilgilərə görə, Ankara hazırda İraq türkmənləri ilə bağlı konkret fəaliyyətlər həyata keçirdiyini əsas gətirərək bu mövzunun daha da kampaniyaya çevrilməməsi üçün Bakının qarışmamasını istəyib. Edilən yardımların da Ankara üzərindən aparılması qərara alınıb. Bu səbəbdən də Azərbaycan hökuməti İraq türkmənləri mövzusunda qarışmama xəttini tutub. Hələlik Ankaranın bu xahişinin arxasında hansı planın dayandığı məlum deyil. Ancaq mümkündür ki, Türkiyə hökuməti türkmənlərlə bağlı xüsusi plana malikdir və müəyyən mərhələdən sonra bu plan açıqlansın.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 261 (6582) 24 noyabr 2016

# Gürcüstan parlamentindəki azərbaycanlı deputatdan ilginc açıqlamalar

## **Azər Süleymanov:** "Bir təyyarənin sükanı arxasına "KamAZ" sürücüsü oturdulanda hansı vəziyyət yaranarsa, Gürcüstanda bu gün həmin vəziyyət yaranıb"







**Gürcüstan səfərimiz çərçivəsində növbəti müsahibimiz son parlament seçkilərində mandat qazanan 4 azərbaycanlıdan biri - Azər Süleymanovdur. O, ölkənin əsas müxalifət partiyası - "Vahid Milli Hərəkat"ın üzvü, Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin yaxın silahdaşıdır. Digər azərbaycanlı deputatlar isə hakim "Gürcü Arzusu" Partiyasının üzvləri Mahir Dərziyev, Savalan Mirzəyev və Ruslan Hacıyevdir.**

*A.Süleymanova ilk sualımız da seçkilərin necə keçirilməsi ilə bağlı oldu. Cavabı isə belə oldu:*

- Seçkilərdə səs qazandıq, amma səslərimizi qoruya bilmədik. İnsanlara təzyiqlər oldu.

***- Azərbaycandakı seçkilərdə təzyiqlərin olması bəllidir. Bu Gürcüstanda da baş verir?***

- Təzyiq burada olur. Azərbaycanda təzyiq görməmişəm. Gürcüstanda təzyiq bir başqadır. Biz bu dövlətin vətəndaşlarıyıq. Ana kimi onu qucaqlayıb sinəmizə basmaq istəyirik. O isə bizi var gücü ilə kənara itələyir. Bəzi qüvvələr var ki, bizi doğmalaşmağa qoymur. Nə qədər desələr ki, milli məsələ yoxdur, bu belə deyil. 87 faiz azərbaycanlı yaşayan bir bölgədə bizə cəmi bircə dəfə öz istədiyimizi seçməyə şərait yaradıldı. Bu 2014-cü ildə oldu. Həmin vaxt bir neçə namizəd vardı. Xalq bir şəxsi seçdi, qutudan tam başqa bir şəxsi çıxardılar. Bu gün də burada icra başçısı saxtadır. Bizim namizəd böyük səs çoxluğu ilə qalib gəlmişdi. Amma qutudan Merab Topçişvilinin adını çıxardılar.

***- Mixail Saakaşvilinin prezidentliyi dövründə necə, seçkilər hansı qaydada keçirilirdi?***

- Hər şey göz qabağında idi. Qanunsuzluqlara yol verilmirdi.

***- Saakaşvili ilə tanışlığınız nə vaxtdan idi?***

- 1999-cu ildən parlament üzvüyəm. Elə o vaxtdan da onunla münasibətlərimiz var. 3-4 dəfə evimdə qonaq olub, prezident olarkən evimə Novruz bayramında qonaq gəlib.

***- Ölkədən gedəndən sonra da əlaqələriniz qalır?***

- Əlbəttə. Tez-tez telefonla danışırıq. Sonuncu dəfə bir gün əvvəl danışdıq.

***- Söhbətin mövzusu parlament seçkiləri idi?***

- Seçkilərdən də, baş verən saxtakarlıqlardan da danışdıq. Dedi ki, möhkəm dayanın. Onun Gürcüstan haqda böyük fikirləri var, hər bir zaman geri dönmək istəyir. Gürcüstanda barəsində 3 cinayət işi var, axtarışdadır. Sərhədi keçsə, həbs olunacaq.

***- Sizə də təzyiqlər var?***

- 4 bir tərəfimdə "təmizlik" işi aparıblar, bütün yaxınlarımı, dost-tanışımı işdən çıxarıblar.

***- Ciblərə silahdan-narkotikdən qoyulması praktikası da varmı?***

- Yox, daha Gürcüstanda belə məsələlər yoxdur. Narkomaniyaya, narkoticarətə qarşı mübarizə var. Mən 100-dən artıq narkoman həbs etdirmişəm. "Barıqa"ları, narkotik daşıyanları rayondan təmizləmişəm. 2007-ci ildə bu işlərə başladıq, 2010-cu ilə qədər rayonda 1 narkoman, narkotik satan da qalmadı.

***- Hazırda bu sahədə vəziyyət necədir?***

- Yavaş-yavaş gündəmə qayıdırlar. Dərman satanlar da, dərman vuranlar da, narkotik də ortaya çıxır. Məndən olsa, narkotik satanlara ömürlük cəza verərəm.

***- ABŞ-da prezident seçkiləri ilə yanaşı 9 ştatda narkotikin leqallaşması ilə bağlı da referendum oldu. Gürcüstanda narkotiklərin leqallaşması üçün də ara-sıra təkliflər eşidilir. Sizcə, bu təkliflərə Gürcüstanın hazırkı parlamenti "yaşıl işıq" yandıra bilər?***

- Burada "belaya bolezen" (*ağ xəstəlik*)deyilən bir hərəkat var. Keçmiş millət vəkili Zurab Çaparidze və onun dəstəsi, "Qoza" Partiyası 2017-ci ildə parlamentin qarşısında böyük bir çətənə kolu əkməyə qərar veriblər. Artıq bəyan ediblər ki, həmin kolu dibçəkdə əkiblər, sulayıb yekələndirirlər. Deyirlər ki, bizi tutsalar belə, dibçəyi parlamentin qarşısına gətirib yüngül narkotiklərin leqallaşdırılmasını tələb edəcəyik. Gürcüstanda bəzi gənclər hərəkatları Qərbdə olduğu kimi yüngül narkotiklərin leqal olmasını istəyirlər. Deyirlər ki, bu qanunun qəbulu Gürcüstanda turizm üçün də bir təkan olacaq. Allah bizi belə səhv qərarların qəbulundan qorusun.

***- Gürcüstanda sahibkarlıq, media sahəsində azadlıq varmı?***

- İvanaşvili hakimiyyətə gələndən sonra azad mediaya qarşı addımlar atılıb. "Rustavi-2" telekanalının qapadılması üçün məhkəməyə müraciət olunub. İl yarımdır ki, telekanalın bağlanması üçün mübarizə gedir. Digər media qurumları İvanaşvilinin nəzarətindədir.

***- Saakaşvilinin hakimiyyətə gəldiyi dövrdə "İmedi" kanalı bağlanmışdı...***

- Hə, bu da olub. O kanalı bağladılar. Hər zaman belə hadisələr olub.

***-Azərbaycanda səs-küyə səbəb olan hadisələrdən biri də Gürcüstandakı erməni kilsələrinə qaz verilməsi idi. Bu haqda nə deyə bilərsiz?***

- Azərbaycan qazı Gürcüstan patriarxlığına pulsuz verib. Patriarxat isə həmin qazı özü bildiyi kimi paylayıb. Yəni orada ayrı-seçkilik salmaq mümkün deyildi. Gürcüstan tolerant dövlətdir və burada dini zəmində ayrı-seçkilik yersizdir. SOCAR-ın da bu məsələyə qarışması doğru olmazdı, Azərbaycana da yaraşmazdı. Bu məsələ müzakirə mövzusu deyil.

***- Gürcüstana kənardan baxanda belə görünür ki, media azadlığı var, insanların tibbi sığortası, sahibkarlar üçün uyğun şərait yaradılıb, vətəndaşın normal yaşamı üçün şərait yaradılıb. Bu belədirmi?***

- Gürcüstanın ən önəmli dövrü 2012-ci ilə qədər oldu. Bundan sonra başlanan durğunluq hər gün daha da dərinləşir. 100-lərlə zavod bağlanıb, lari davamlı olaraq qiymətdən düşür. Bu gün Gürcüstanda əhalinin yarısından çoxu, 85-90 faizi banklara işləyir, kreditlər altında çabalayırlar. İşsizlikdən insanlar Gürcüstandan qaçırlar. Rusiyaya, Türkiyəyə üz tuturlar. Son 4 ildə 2003-cü ildən 2012-ci ilə qədər görülən 1 faizi həcmində iş görülməyib. 2003-cü ildən 2007-ci ilə qədər demək olar ki, hər bir sahədə köklü islahatlar həyata keçirildi. Polis, prokurorluq, səhiyyə, təhsil, kənd təsərrüfatı sahələrində başlanan proses rüşvətin kökünü kəsdi. İndi isə əks proses başlayıb, Gürcüstan 2000-ci ilə qaytarılıb.

***- Bu nə ilə əlaqədardır?***

- Xaricdə təhsil alan savadlı, bacarıqlı kadrları işdən çıxarıb əvəzinə qohum-qardaşı işə qoydular. Bu gün Gürcüstanda rəhbər vəzifələrə futbolçular təyin olunur. Biznesmenlər öz dostlarını vəzifəyə qoydurdular.

***- Gürcüstan parlamentinin yeni sədri də futbolçudur?***

- Hüquqşünasdır, savadlı kadrdır. İvanaşvilinin sevimli kadrlarındandır. Amma çox savadlı, qabiliyyətli, bir qədər emosiyası olan insandır. Bu seçim düzgündür.

***- Parlamentdə müxalifət fraksiyasının qərarların qəbuluna təsir imkanları varmı?***

- Demək olar ki, yoxdur. 150 deputatdan 115-i hakim partiyanın üzvləridir. 113 səs kifayət edir ki, konstitusiyaya dəyişikliklər etsinlər. Əvvəlki parlamentdə qərarların qəbulu müxalifətsiz mümkün deyildi. Bu gün isə saxta parlamentdə istədikləri qərarı keçirə bilirlər. Bu gün rusiyameylli qüvvələr Gürcüstanda hakimiyyətdədir.

***- Həmin qüvvələri xalq seçməyib?***

- Xalq seçimində yanılıb, aldanıb. Xalq gözləyirdi ki, İvanaşvili onun rifahını yaxşılaşdıracaq. Amma ötən 4 il onu göstərdi ki, xalq yanılıb.

***- Bəlkə Saakaşvili hakimiyyətdə qalmalı, başladığı islahatları davam etdirməli idi?***

- Yox, bu halda Gürcüstan demokratik ənənələrdən kənarlaşmış olardı. Gürcüstan inqilab yolundan demokratik seçim yoluna qədəm qoydu. Amma İvanaşvilinin seçimi göstərdi ki, Gürcüstan bu addımı atmaqla bir qədər tələsib. Seçkilərin saxtalaşdırılması bunu ortaya qoydu ki, hələ Gürcüstan dövləti belə addımları atmaq üçün gəncdir. İvanaşvili hakimiyyəti 4 il hakimiyyətdə oldu, verdiyi vədlərin heç 1 faizini yerinə yetirmədi. Artıq növbəti və sonuncu 4 illik dövrə baş vurublar. Heç olmasa verdikləri vədlərin 50 faizini yerinə yetirib adlarını tarixə yazdırmaq şansları var. Yerinə yetirməsələr, insanlar onları çox xoş olmayan tərzdə yola salacaqlar.

***- Vədləri nə idi?***

- Ucuz kredit verəcəklərini demişdilər.

***- Vermədilər?***

- Verdilər, amma bahalı kreditlər oldu. Demişdilər ki, yüzlərlə zavod açacaqlar, amma yüzlərlə zavodu bağladılar. Benzinin qiymətinin 50 faiz endiriləcəyini vəd etmişdilər, olmadı. Pensiyaların qaldırılacağını vəd etmişdilər. Bir təyyarənin sükanı arxasına "KamAZ" sürücüsü oturdulanda hansı vəziyyət yaranarsa, Gürcüstanda bu gün həmin vəziyyət yaranıb. Parlamentin, prokurorluğun, polisin sədri də bir nəfərdir. Bunu hamı bilir. Bu gün Gürcüstanda dövləti quran insanları həbsə atır, ömürlük həbsdə yatmalı olan cinayətkarları isə azad edib vəzifəyə təyin edirlər.

***- Gürcüstan dövlətindən hansı gözləntiləriniz var?***

- Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanı gürcülərdən az sevmirlər. Bura bizim vətənimizdir. Biz David Qurucunun dövründən burada varıq. Gürcüstanı qoruyan Ulu Borçalı, Xudu Borçalının dəstəsi olub. Biz bu dövlətin var olmasında əlimizdən gələni etmişik, heç vaxt bu dövlətə arxadan zərbə vurmamışıq. Bu gün müxalifətdə olmağımız da Gürcüstanın daha da güclənməsinə xidmət edir. Üzərimizdəki 4 cinayət işi də sözümüzü deməkdən bizi dayandıra bilməz. İstəyirik ki, Gürcüstan dövləti ayılsın ki, burada layiqli vətəndaşları var, bizə eyni gözlə baxsınlar. Seçki vaxtı yada düşməyimizi heç istəmirik. Gürcülərə göstərilən münasibət vətəndaş olaraq bizə də göstərilməlidir. İstəmirik ki, cavanlarımız Rusiya bazarlarında ölsün, Türkiyədə kimya zavodlarında zəhərlənib xəstəlik tapsınlar. Bu gün Gürcüstanda azərbaycanlı gənclər var ki, nazir, nazir müavini ola bilər. ABŞ-da keniyalı prezident ola bilirsə, nəyə görə Gürcüstanda azərbaycanlı nazir olmasın? Biz parlamentdə azərbaycanlılara kvota qoyulmasının əleyhinəyik.

***- Gürcüstanla Rusiya münasibətləri bu gün hansı vəziyyətdədir?***

- İvanaşvili hakimiyyətə Rusiya bazarlarının qapısını Gürcüstan biznesinin üzünə açacağı vədləri üzərindən gəldi. Vəd etmişdi ki, Gürcüstan vətəndaşları Rusiyaya vizasız gedib-gələ biləcəklər. Amma bu da baş vermədi. Saakaşvilinin dövründə biz Rusiya vətəndaşlarının Gürcüstana vizasız gəlməsini təmin etmişik. Rusiya isə Gücüstan vətəndaşlarını vizasız ölkəyə buraxmır. Buraxsa belə, bu da o qədər də önəmli deyil. Gürcüstan Osetiya ilə Abxaziyanı bazarlarda meyvə-tərəvəz alverinə icazə verilməsinə dəyişə bilməz. Biz 20 faiz Gürcüstan torpağının işğalda qalmasına razı ola bilmərik. Biz Rusiyanın böyük qardaşlığına razıyıq, bir şərtlə ki, torpaqlarımızı geri qaytarsınlar.

***- Necə düşünürsünüz, qərbmeylli siyasət torpaqların qaytarılmasına mane olmur ki?***

- Həmin torpaqlar Saakaşvilinin dövründə itirilməyib. Yəni qərbmeylli siyasətdən əvvəl işğal baş verib. 25 ildir ki, torpaqlarımızın geri qaytarılması üçün çalışırıq. Bu problemin həlli abxazlarla osetinlərin əlində deyil. Yeganə həll yolu Kremldədir. Yəni problemin həlli mümkün olmursa, qərbmeylli siyasət ölkəni dirçəldirsə, nəyə görə həyata keçirilməməlidir? Bu gün Gürcüstanda rüşvətin kökünün kəsilməsi, bütün sahələrdə islahatların həyata keçirilməsi həmin siyasətin nəticəsidir. Gürcüstan 2003-cü ilə qədər dünyada rüşvət üzrə siyahılarda fəxri 1-ci yeri tuturdu. 2011-ci ildə isə artıq Gürcüstanda rüşvət yox edilmişdi. Gürcüstan ən kriminallaşmış, korrupsioner dövlətlərdən biri idi. Bu gün Gürcüstanda kriminal yoxdur. Kimsənin ağlına gəlmir ki, evdən gedəndə qapını bağlasın. Dünyadakı 600 "qanuni oğru"nun az qala yarısı - 275 nəfəri Gürcücstandan idi. Bu gün isə Gürcüstanda 1 nəfər olsun belə "qanuni oğru" yoxdur. Qanun qəbul olundu ki, "qanuni oğru" ömürlük həbsə alınmalıdır. Gedənlər getdi, qalanlar ömürlük həbsə alındılar.

***- Deyəsən, "Ded Xasan"ın Gürcüstanda dəfninə də icazə verilmədi...***

- Hə, onun burada dəfninə icazə verilmədi. Gürcüstanda "qanuni oğru"lara yer yoxdur.

***- Yaxın perspektivdə Gürcüstanı nə gözləyir?***

- Əgər indiki hakimiyyət verdiyi vədləri yerinə yetirməyə başlasa, vəziyyət dəyişə bilər. Amma buna inanmıram. 2020-ci ildə "Gürcü Arzusu" Partiyası tarixdən silinəcək.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 261 (6582) 24 noyabr 2016

# Satışda zəhərli oyuncaqlar var! - Valideynlər üçün SOS!

**Eyyub Hüseynov:** "Dükana girərkən pis qoxu gəlirsə, oradan heç nə almayın, oyuncağın rəngi çıxırsa, tükləri qopursa, sertifikatı yoxdursa, almaqdan imtina edin..."

**Oyuncaqlar uşaqlar üçün əsas oyun vasitəsi olmaqla yanaşı, onların zehninin inkişafında, psixologiyasında və sağlamlığında da mühüm rol oynayır. Paytaxtda hər addımbaşı uşaq oyuncaqları mağazalarına rast gəlmək mümkündür. Bu oyuncaqlara baxarkən nəinki uşaqlar, az qala, böyüklər belə onlarla həvəslə oynamaq istəyir.**

Oyuncaqların qiymətləri də müxtəlifdir. Gəlincik var 70 manata, gəlincik var 3 manata satılır. Fərq onların hara istehsalı olmasındadır. Ölkəmizə oyuncaqlar Çindən, Türkiyədən, Rusiyadan və Almaniyadan gətirilir. Onların içərisində ən ucuz satılan Çin istehsallı olanlardır. Təbii ki, bütün valideynlər övladlarına bahalı uşaq oyuncaqları ala bilmir.

Hələ bir neçə il öncə Avropa Komissiyası Çin istehsalı olan oyuncaqların potensial ölüm təhlükəsi olduğunu açıqlamışdı. Bu oyuncaqlardan istifadə ən yaxşı halda zəhərlənmə ilə nəticələnir. Xüsusən 0-3 yaş arası uşaqlar üçün nəzərdə tutulan oyuncaqlar rezindən hazırlanır. Onların tərkibində oksigenin kimyəvi sərfiyyatı, stirol miqdarına görə tələblərə cavab vermir. Bu oyuncaqların tərkibində ağır metallar olan qurğuşun, kadium, arsen və xromun miqdarı yüksək olur. Adıçəkilən metallar isə uşaqlarda xərçəng xəstəliyinə belə səbəb ola bilir. Oyuncaqların tərkibindəki qurğuşun xüsusən də 0-5 yaş arası uşaqlar üçün daha təhlükəlidir. Nisbətən böyük uşaqlarda bədənin qəbul etdiyi qurğuşunun 10%-i qana keçirsə, azyaşlılarda bu 50% olur.

Ümumiyyətlə, yalnız Azərbaycanda deyil, dünyada oyuncaq industriyasına hökmranlığı Çin edir. Statistikaya görə, Avropa Birliyi ərazisində satılan hər 4 oyuncaqdan 3-ü Çin istehsalıdır. Oyuncaq bazarında liderliyi ələ keçirən çinlilər hər il ABŞ-a, Avropaya, postsovet ölkələrinə və s. milyardla dollarlıq oyuncaq ixrac edir. Artıq isbat olunub ki, Çinin oyuncaq istehsal edən müəssisələri oyuncaqların hazırlanmasında sənaye məhsullarının tullantılarından istifadə edir ki, bu da uşaqların səhhətinə ciddi zərər vurur. Oyuncaqlar plastmas, metal, ağac, rezin, parça, karton və s. kimi materiallardan hazırlanır. Bunların da hər birinin müəyyən müsbət, yaxud mənfi xüsusiyyətləri var.

Məsələn, parçadan hazırlanan oyuncaqlar uşaq üçün daha təhlükəsizdir. Uşaq onu özünə rahat sıxa, qucaqlaya bilər. Plastmas, rezin oyuncaqlar təhlükəsiz olsa da kimyəvi tərkibi mənfi fəsadlar yarada bilər. Metal və ağac materiallarından oyuncaqlar isə uşağı zədələyə bilər.

Bəzən oyuncaq mağazalarına girərkən rezin iyinə bənzər qəribə qoxu hiss edirik. Yaxud hansısa oyuncağın qoxusunun qəribə olduğunu hiss etsək də buna diqqət etmirik. Mağazalarda Çin istehsalı ilə yanaşı, keyfiyyətli, sertifikatlaşdırılmış və bütün tələblərə cavab verən Almaniya, Türkiyə, Rusiya istesalı olan oyuncaqlara da rast gəlinir. Məsələn, "28 Mall" ticarət mərkəzində "Panda Kids"də, "Beybi-şop", "Mazakeya" kimi mağazalarda bütün standartlara cavab verən və Çin istehsalı olmayan oyuncaqlar mövcuddur. Ancaq onların qiyməti də əl yandırır. Bu mağazalarda qiymətlər 30 manatdan başlayır 400 manatadək davam edir. Ancaq kiçik mağazalarda, "20 Yanvar" metrosu yaxınlığında bu cür oyuncaqları 2 manatdan 15 manatadək əldə etmə mümkündür. Bu cür mağazaların bir neçəsinə baş çəkib oyuncaqların keyfiyyəti ilə maraqlandıq.

**Satıcılar bir qədər solmuş, iy verən bu oyuncaqların sertifikatlarının olmadığını deyirdilər. Satıcı Nizami Quliyev bu oyuncaqları çəki ilə aldıqlarını dedi: "Oyuncaqların hamısı Çindən gəlir. Kim deyir ki, biz Türkiyədən ya başqa ölkədən gətiririk, yalandı. Bəzən oyuncağın üzərində istehsal yeri də yazılmır".**

"28 Mall" ticarət mərkəzində baş çəkdiyimiz digər oyuncaq mağazasında isə qiymətlər 20-600 manat arasında dəyişirdi. Burada müxtəlif səslər çıxardan maşınlar, oyuncaqlar vardı.

Psixoloqların qənaətinə görə, uşaq oyuncaqları 3 əsas tipə - qızlar üçün, oğlanlar üçün və universal oyuncaqlara bölünür. Qız və oğlan oyuncaqları gələcəkdə onların görəcəkləri işləri xarakterizə edir. Universal oyuncaqlar isə uşaqların hərtərəfli inkişafı, onların məntiqi düşüncəsinin formalaşması baxımından zəruridir. Psixoloqlar oyuncaqlarla çox oynayan uşaqların insanlarla ünsiyyətinin daha yaxşı olduğunu bildirirlər. Ancaq müəyyən yaşa - 5 yaşına kimi valideynlərin uşaqlarına səsli oyuncaqlar alması məsləhət görülür. Çünki güclü səs körpənin əsəblərini qıcıqlandırır. Ona elə gəlir ki, ətrafında böyük bir gurultu var. Uşağınıza zərər verməyən oyuncaq seçiminə gəlincə, çalışmaq lazımdır ki, sertifikatı olan oyuncaqları alasınız.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bir sıra oyuncaqların uşaqları tədricən zəhərlədiyini dedi:** "Azərbaycandakı oyuncaq biznesi uşaqların sağlamlığı üçün təhlükəlidir. Azad İstehlakçılar Birliyinin əlində 700-ə qədər mal və xidmətin siyahısı var ki, onlar heç bir sertifikat olmadan satış həyata keçirirlər - baxmayaraq ki, uşaq oyuncaqları məcburi sertifikatlaşdırılan mallar siyahısındadır. Yəni onlar ölkənin əmtəə bazarına daxil olmamışdan öncə sertifikatlaşdırılmalı, yoxlanılmalı və sonra satılmalıdır. Lakin bizdə necə harada gəldi bu oyuncaqlar satılır. Hətta Çin vətəndaşlarının belə əllərində uşaq oyuncaqları satdığının biz şahidiyik. Uşaq oyuncaqlarının böyük bir hissəsi körpələrin tədricən zəhərlənməsinə rəvac verir. Ona görə də uşaq oyuncağı alarkən diqqətli olmaq lazımdır. Dükana girərkən pis qoxu gəlirsə, həmin dükandan heç nə almasınlar. Oyuncağın rəngi çıxırsa, tükləri qopursa, sertifikatı yoxdursa, onu almaqdan imtina etsinlər".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**












## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarnn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

YENİ MÜSAVAT
N 261 (6582) 24 noyabr 2016

# 155 manatla minimum yaşamaq...

**Gələn il Azərbaycanda yaşayış minimumunun artırılması gözlənilir. "Turan" agentliyinin xəbərinə görə, "2017-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsində onun 155 manat olması təklif olunur. Layihəyə görə, yaşayış minimumu əmək qabiliyyətli əhalidən ötrü 18,5 manat artırılaraq 164,5 manata qaldırılacaq. Pensiyaçıların yaşayış minimumunun 15,2 manat artırılaraq 130,2 manata, uşaqların isə 19,6 manat artırılaraq 136,6 manata çatdırılması təklif olunur. 2016-cı ildə yaşayış minimumu 136 manat təşkil edib.**

## Ekspertlər bildirirlər ki, Avropa Birliyinin ən kasıb ölkəsi sayılan Bolqarıstanda yaşayış minimumu 190 avrodur



**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, əslində Azərbaycanda yaşayış minimumu ilə bağlı əsas problem onun hesablanması ilə əlaqəlidir: "Hesablanma qaydalarında ciddi qüsurlar var. Qonşu ölkələrin, hətta Şərqi Avropa ölkələrinin yanaşması ilə Azərbaycanın yanaşması, hesablama qaydaları çox fərqlidir. Artıq dünyada yaşayış minimumuna hətta internet xərclərindən tutmuş mədəni tədbirlərdə iştirak xərclərinə qədər hər şey daxil edilir. Azərbaycanda isə çox primitiv şəkildə, əsasən ərzaq və nəqliyyat xərclərindən ibarət bir yaşayış minimumu hesablanır. Bu indikatorlar da çox aşağı səviyyədə götürülür. Bu il yaşayış minimumunun artırılması əslində hökumətin xoş niyyətindən irəli gəlmir. Qanunvericilikdə rəsmi inflyasiya qədər yaşayış minimumunun indeksləşməsi məsələsi nəzərə tutulub. Bu il də rəsmi inflyasiya təqribən 12 faiz civarındadır. Buna uyğun olaraq yaşayış minimumunun artırılması nəzərdə tutulur. Bir misalla bunu izah etmək olar ki, Avropa Birliyinin ən kasıb ölkəsi sayılan Bolqarıstanda yaşayış minimumu 190 avrodur. Bizim indiki məzənnə ilə hesablasaq, az qala, 350-360 manat civarında bir yaşayış minimumu hesablanır. Yəni Avropanın ən kasıb ölkəsində yaşayış minimumu bizdən iki dəfədən çoxdur. Bunun özü elə onu sübut edir ki, Azərbaycanda yaşayış minimumunun hesablanması və əhaliyə yetəcək səviyyədə olması bir sual altındadır və böyük problemdir. Ona görə də Azərbaycanda yaşayış minimumunun ilkin olaraq indikatorları dəyişməlidir, hesablanma qaydaları dəyişməlidir və reallığa daha uyğun bir yaşayış minumumu indeksi hesablanmalıdır. Maaşların, pensiyaların hesablanması yaşayış minimumuna dayanır. Əgər artım olsa, təqaüdlərdə də artım olmalıdır. Büdcənin problemli olduğu bir vəziyyətdə, gəlirlərin azaldığı bir vəziyyətdə düşünürəm ki, hökumət buna getmək istəmir. Bunun üçün maliyyə imkanları da yoxdur. Ona görə də hökumət bu indikatorları dəyişməkdə və yaşayış minimumunu normal şəkildə hesablamaqda maraqlı deyil".

İqtisadi Tədqiqatlar Mərkəzi isə (İTM) yaşayış minumumunun gerçək dəyərini hesablayıb. Nəticələrə görə, oktyabr ayında yaşayış minimumunun dəyəri əmək qabiliyyətli əhali üçün 253,4 manat, pensiyaçılar üçün 199,9 manat, uşaqlar üçün 259,9 manat olub. 2017-ci il yanvarın 1-dən yaşayış minimumu ölkə üzrə 155 manat, əmək qabiliyyətli əhali üçün 164,5 manat, pensiyaçılar üçün 130,2 manat, uşaqlar üçün 136,6 manat məbləğində müəyyən ediləcək. Rəsmi rəqəmlərin reallığını yoxlamaq üçün İTM ekspertləri Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilən minimum istehlak səbətinin tərkibinə daxil olan ərzaq, qeyri-ərzaq və xidmətlər üzrə yaşayış minimumunun dəyərini hesablayıb. İTM ekspertlərinin cari ilin oktyabr ayına olan qiymətlər əsasında apardığı alternativ hesablamalara görə, yaşayış minimumunun dəyəri əmək qabiliyyətli əhali üçün 253,4 manat, pensiyaçılar üçün 199,9 manat, uşaqlar üçün 259,9 manat olub. Ötən aya olan yaşayış minimumunun gerçək dəyəri növbəti il üçün müəyyənləşdirilən rəsmi dəyərindən əmək qabiliyyətli əhali qrupu üzrə 88,9 manat və 35,1 faiz çox, pensiyaçılar qrupu üzrə 69,7 manat və ya 34,9 faiz, uşaqlar üçün 123,3 manat və ya 47,5 faiz çoxdur. Hesablamalar arasında daha böyük kənarlaşma- 2 dəfəyə yaxın fərq uşaqlar üçün yaşayış minimumu dəyərində qeydə alınıb. Uşaqlar üçün yaşayış minimumunun dəyərinin yuxarı olmasının başlıca səbəbi Azərbaycanda uşaqlar üçün qida və geyim məhsullarının baha olması ilə izah olunur.

**"Eyni zamanda İTM-in apardığı gerçək hesablamalar göstərib ki, ərzaq məhsullarına yönələn xərclərin əmək qabiliyyətli əhali üçün yaşayış minimumunun dəyərində payı 58 faiz, pensiyaçılar üçün yaşayış minimumunun dəyərində payı 67 faiz, uşaqlar üçün yaşayış minimumunun dəyərində payı 61 faiz təşkil edib. Beləliklə, ərzaq xərcləri pensiyaçıların yaşayış minimumunun dəyərində daha çox paya malikdir",-** deyə ekspert Qubad İbadoğlu bildirib.

❑ Röya RƏFİYEVA

# Rabitə Nazirliyi bir ildir qəzetsiz qalıb

## Nazirlik yetkilisi: "'Rabitə dünyası"nın nəşrinin nə vaxt bərpa olunacağı haqda heç nə deyə bilmərik"

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin vəzifələrindən azad edilmiş 11 əməkdaşının cinayət işi üzrə məhkəmə prosesi davam edir. İttiham aktına əsasən, bu şəxslər böyük məbləğdə maddi vəsaiti mənimsəməkdə təqsirli bilinirlər.**

Sabiq nazir Əli Abbasov istintaqa cəlb olunmasa da, son günlər onun barəsində də korrupsiya faktlarını özündə əks etdirən məlumatlar yayılır. Baxmayaraq ki, o, özü ilə bağlı səslənən fikirlərin yalan olduğunu bildirir, ancaq ictimaiyyətdə bu nazirlikdə böyük məbləğdə pulların yeyilməsi məsələsi ən çox müzakirə edilənlər sırasındadır.

Xüsusilə də keçmiş nazirin bir ayda 300 min manat xərcləməsi ilə əlaqədar yayılan informasiyalar cəmiyyətdə böyük rezonans doğurub.

Bəs belə olduğu halda nazirliyin rəsmi mətbu orqanı olan və bu sahədəki məlumatları özündə cəmləyən "Rabitə dünyası" qəzeti nə yazır?




Bunu öyrənmək üçün ilk olaraq qəzetin çap versiyasını almaq məqsədilə şəhərdəki köşklərə yaxınlaşdıq. Köşklərdən bizə bildirdilər ki, bir ildən çoxdur həmin qəzeti satmırlar. Çünki onlara bu qəzet verilmir.

Qeyd edək ki, "Rabitə dünyası" qəzeti 1992-ci ildən çap olunurdu. Fəaliyyəti dövründə qəzet spesifik olaraq rabitə sahəsi ilə bağlı yenilikləri, məlumatları oxucularına çatdırıb.

Əldə etdiyimiz məlumata görə, ötən ilin dekabr ayından etibarən "Rabitə dünyası"nın fəaliyyəti dayandırılıb. Bildirilir ki, hazırda nazirliyin yerlərdə olan şöbələrinin divarlarına vurulan qəzet guşəsi çıxarılmasa da, uzun müddətdir ki, orada "Rabitə dünyası" qəzetinin yeri boş qalıb.

Mənbəmizin sözlərinə görə, yeni mətbu orqanın yaradılması və ya "Rabitə dünyası" qəzetinin bərpası hələ ki gözlənilmir. Məlumata görə, nazirliyin yeni rəhbərliyi struktur islahatlarının aparılması ilə kollektivin daha da mobilləşdirilməsi və izafi xərclərin azaldılması istiqamətində işlər aparır.

Qəzetin elektron versiyası isə internet üzərindən silinməyib. Sayt iki dildə *(Azərbaycan və ingilis)* fəaliyyət göstərsə də, çoxsaylı bölmələrində hər hansı bir informasiya mövcud deyil. Saytın yalnız əsas səhifəsində rabitə ilə bağlı məlumatlar var ki, onlar da ötən ilin dekabr ayına aiddir. Həmin məlumatlar əsasən rabitə sahəsində texniki məsələlərlə bağlı, keçiriləcək tədbir və konfranslar haqqında xəbərlərdən ibarətdir.

Saytda redaksiya ilə əlaqə nömrələri də qoyulub. Həmin nömrələrlə əlaqə saxlayıb, vəziyyətlə bağlı məlumat almaq istədik. Lakin öyrəndik ki, artıq həmin nömrələr də nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsinə verilib. Şöbədən bildirildi ki, qəzet fəaliyyətini tamamilə dayandırıb: **"Qəzetin fəaliyyətinin nə zamansa bərpa olunub-olunmayacağını söyləmək və buna qərar vermək isə bizim səlahiyyətimizdə deyil. Ona görə də bu barədə hər hansı məlumat verə bilmərik".**

❑ Əli RAİS

# "Bu il qış çox sərt keçəcək"

## Ekoloq: "40-50 ildən bir iqlim dəyişikliyi baş verir"



**Artıq iki gündür Bakıda soyuq, şaxtalı hava müşahidə olunur. Xüsusən də paytaxtın şimal girişində olan ərazilərinə səhər saatlarında qar yağıb, bəzi küçə və prospektlərindəki yollar buz bağlayıb. Hava şəraiti ilə əlaqədar körpü və tunellərdə nəqliyyat vasitələrinin hərəkətlərində sıxlıq yaşanıb. Lakin maraqlıdır ki, Bakının cənub qurtaracağında olan ərazilərdə qar yağıntısı olmayıb. Şəhərin bir tərəfinə az da olsa qar yağdığı halda, digər tərəfi quru və yağmursuz olub. Bu da şəhər sakinləri arasında çaşqınlıq yaradıb.**

Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov "Yeni Müsavat"a açıqlama verərək məsələyə aydınlıq gətirib. Ekspert qeyd edib ki, bu cür hava prosesi küləyin əsmə hərəkətindən asılıdır: "Külək haradan əsirsə qarı həmin tərəfə gətirib tökəcək. Burda heç bir anormal cəhət yoxdur və sırf qış mövsümünə xarakterikdir. Ümumiyyətlə, 15 ildən sonra dəhşətli şaxtalar baş verəcək, Yer kürəsi buzla bağlı olacaq. Şimal açıq olacaq, şimalda buz olmayacaq, bu da gəlib çıxacaq 40-50-ci paralelə. Yəni soyuq hava kütlələri Azərbaycana, Rusiyanın isə cənub bölgələrinə düşəcək. Bu il qış çox sərt keçəcək. Ola bilsin ki, qarşıdakı aylarda qar yağmayacaq, amma şaxtalı olacaq. Hazırda bəzi bölgələrdə 5-7 dərəcə şaxta var. İsmayıllıdan aldığım məlumata görə, ora da 15 santimetr qalınlığında qar yağıb. Bəzən deyirlər ki, qarşıda bizi su qıtlığı gözləyir. Amma bizdə su qıtlığı olmayacaq, çünki dağlara qar yağıb, buzlar var.

Ümumiyyətlə, 40-50 ildən bir iqlim dəyişikliyi baş verir, əvvəl isti olur, sonra isə onun ardınca soyuq iqlimləri gəlir. Şimal buzlu okeanlarda cənub bölgəsində buzlar əriyirsə, aysberqlər hərəkət edirlərsə, bu zaman okeanlarda su soyuyur, hava da soyuğu 30-50-ci paralelə, həm cənub, həm də şimal qütbünə gətirir. Bu soyuqlardan da ən çoxunu Azərbaycan, Dağıstan, Rusiyanın cənub bölgələri çəkəcək. Ancaq digər tərəflərdə isti olacaq. Məsələn, hazırda Norvegiyada 5-6 dərəcə isti var, Bakıda isə -1 dərəcədir, rayonlarda da 7-8 dərəcə şaxta var".

Qeyd edək ki, bu il ölkəmizdə qış mövsümü vaxtından əvvəl müşahidə olunmağa başlayıb. Artıq sentyabr ayından bir çox dağətəyi rayonlara sulu qar, qar yağıb. Oktyabr ayında Quba və Naxçıvana ilk intensiv qar yağıb. Noyabrın əvvəlində isə Tovuz rayonuna yarım metrdən çox qar yağmışdı.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, havanın minimal temperaturu Bakıda və Abşeron yarımadasında 2 dərəcə şaxta, Aran rayonlarında 0-2, dağlıq rayonlarda 6-8, Naxçıvan MR-də 7-11, Böyük Qafqazın yüksək dağlıq ərazilərində 13-16 dərəcə şaxta təşkil edir.

❑ XALİDƏ

YENİ MÜSAVAT

Son səhifə

N 261 (6582) 24 noyabr 2016



## Gül xəstəliyinə tutuldu, həyatı qaraldı

32 yaşındakı Leks Gilliеs gül xəstəliyi olaraq tanınan rosacea xəstəliyindən özəl bir dieta ilə qurtulub. "Daily Mail"ın xəbərinə görə, gənc qadının üzündəki qızartılar universitetdə olanda başlayıb və bütün cəhdlərinə baxmayaraq, nə keçir, nə də makiyajla üstü qapadılırdı. Gündən-günə özünə inamını itirən və utancını gizləyə bilməyən Leks işdən də çıxmaq zorunda qalıb. Müdiri isə düşünürdü ki, bu qız ona gizlicə aşiq olduğu üçün üzü qızarırdı. Makiyaj bloggeri olan Leksin xəstəlikdən və stressdən qurtulmaq üçün həyatında etdiyi bəzi köklü dəyişikliklər üzündəki qızartıların azalması və dərisinin düzəlməsini təmin etdi. Vaxtilə üzü pomidor kimi olan Leksin xəstəliyi zamansız bir şəkildə özünü göstərirdi. İndi isə üzü ayda sadəcə iki dəfə qızarır. İlk dəfə universitetdə diaqnoz qoyulan gənc qadının xəstəliyinə stress, sərt hava şəraiti, isti içkilər, isti vanna, alkoqol və ədvalı yeməklər, eləcə də enerji içkilərinin təsir göstərdiyi təxmin edilirdi. Gluten dietasına başlayan gənc qadın alkoqoldan istifadəni azaltdı, saç düzləşdirməsindən belə vaz keçdi. Gül xəstəliyi adətən dəridə qızartılarla başlayır. Amma xəstəlik irəlilədikcə üzdə yanma, daimi qırmızılıq, qabarcıqlar özünü göstərir.

# Quşun skeletini 430 min dollara satdılar

İngiltərədəki auksionda nəsli tükənmiş dodo quşunun skeleti 430 min dollara satılıb. BBC-nin xəbərinə görə, İngiltərənin cənubundakı Billinqshurst kəndində, Summer Place muzeydə satışa çıxarılan dodo skeletini özəl bit kolleksiyaçı alıb. Auksionun təşkilatçıları bildiriblər ki, bu quşun skeleti 40 il boyunca bir dodo həvəskarı tərəfindən yığılıb. Ümumən dünya coğrafiyasındakı muzeylərdə cəmi 12 dodo skeleti var. Nəsli tükənmiş bir göyərçin cinsindən, uça bilməyən bir quş növü olan dodo ən son 16-cı əsrdə Hind Okeanındakı Mauritius Adasında dənizçilər tərəfindən görülüb. Hinduşkadan daha böyük olan, orta hesabla 23 kiloqram ağırlığındakı quşun 1681-ci ildə nəslinin kəsildiyi qeyd edilir.



# Saçını rəngladiyi üçün ölümlə üz-üzə qaldı

"The Sun"ın xəbərinə görə, 5 aylıq hamilə olan Cess Straçan saç rəngini dəyişdirmək istərkən özünü də, körpəsini də öldürürdü. Tövsiyə edilən allergiya testini etmədən saçlarını rəngləyən Cessin bədəni allergik reaksiya göstərdiyi üçün üzü o qədər şişdi ki, gözləri belə açılmırdı. Dərhal təcili yardım xəstəxanasına müraciət edən qadının bətnindəki körpə ziyan görməsin deyə ona nə dərman verildi, nə də iynə vuruldu. Cessin başı iki dəfəyə qədər böyüdü və ağrısı da dayanılmazdı. Həkimi dedi ki, reaksiya xaricə verildiyi üçün qadın şanslıdır və körpəsi də qaydasındadır. Daxili reaksiya verilsəydi, Cess və körpəsi ölə bilərdi. 30 yaşlı qadın körpəsini sağlam şəkildə dünyaya gətirsə də, ana namizədlərinə ehtiyatlı olmağı tövsiyə edib.





## İşgüzar qadın daha çox döyülür

Türkiyənin Ağdəniz Universitetinin hüquq fakültəsinin müəllimi, professor Məhərrəm Kılıç bildirib ki, işləyən qadınlar daha çox zorakılığa məruz qalır: "İşləməyən qadınların şiddət görmə nisbəti 38,7 faiz, işləyən qadınlar arasında şiddət görmə nisbəti isə 40,7%-dir. Evin büdcəsinə bir töhfə verməsinə baxmayaraq, işləyən qadın işləməyən qadından daha çox şiddətə məruz qalır".

Kılıç qadına qarşı zorakılıqda ailənin rifah səviyyəsinin əhəmiyyətli olduğunu, aşağı rifah səviyyəsinin 47 faiz, orta rifah səviyyəsinin 38 faiz, yüksək rifah səviyyəsinin isə 26,7 faiz olduğuna diqqəti çəkib.




**QOÇ** - ."Həmişə haqlıyam" kimi dəhşətli və qərəzli fikirlərdən əl çəkin. Əks təqdirdə, hər şeydən məhrum ola bilərsiniz. Çünki insanların dözüm və güzəşt limmiti tükənməz deyil.

**BUĞA** - Tale imtahanlarından birini vermək üçün bu gün qarşınıza çıxan hər bir hadisəyə imanla yanaşın. Nəzərə alın ki, Böyük Yaradandan gizli heç nə yoxdur. Doğmalarınıza baş çəkin.

**ƏKİZLƏR** - Neçə vaxtdan bəri mövcud olan pulla bağlı sıxıntılarınız nəhayət ki, aradan qalxmağa başlayacaq. Bu isə həmişə olduğu kimi ovqatınızın yüksəlməsinə stimul verəcək.

**XƏRÇƏNG** - Lazımsız əlaqələrə son qoymağı bacarsanız, ulduzlar sizə xoş bir gün bəxş edəcək. Enerjinizi yalnız xeyirxah işlərin həllinə və maliyyəyə yönəldin. Yuxusuzluğa qarşı əncam çəkin.

**ŞİR** - Astroloji göstəricilər naharaqədərki vaxtı adi işlərə həsr etməyi məsləhət görür. Bütün görüşlərdə ehtiyatlı olun. Sonrakı müddətdə isə fəaliyyətdə müəyyən uğurlarınız mümkündür

**QIZ** - Günün ümumi mənzərəsi normal olsa da, bəzi səhvlərdən yaxa qurtarmağa çalışın, ələlxüsus da münasibətlərdə. Dəqiq olmayan məsələlərə yekun münasibət bildirməyin. Gəlir də mümkündür.

**TƏRƏZİ** - Yaşamağın çox çətin olduğu indiki vaxtda "körpüləri yandırmaq" sizə yaramaz. Ən azı xoş gələcəyiniz üçün bunu etməməlisiniz. Davranışda səmimi, sağlamlığınızda ehtiyatlı olun.

**ƏQRƏB** - Əgər əsas gücü ünsiyyətin mülayimləşdirilməsinə yönəltsəniz, ulduzlar sizi sevindirəcək. Hətta maddi durumunuz da qənaətbəxş hala gələ bilər. Bu gün yaxın səfərə çıxmaq olar.

**OXATAN** - Bürcünüzdəki müsbət kosmik fon ümumi işlərinizdə xeyli irəliləyiş yaradacaq. Həm fəaliyyətdə, həm də münasibətlərdə sevinəcəksiniz. İstənilən yeni təklifə razılıq verin.

**OĞLAQ** - Günün birinci yarısında əsəblərinizi qorumağı bacarın ki, Göy qübbəsinin sürprizləri sizdən yan keçməsin. İnsanlara əşya kimi deyil, Tanrının yaratdığı ali varlıq kimi baxın.

**SUTÖKƏN** - Dəyişkən iqlimlə mübarizədə əzmkar olun ki, qarşıda duran perspektivlərə yetişəsiniz. Öz təklif və əmrlərinizlə müsahiblərinizin işini çətinləşdirməyin. Gecəni öz evinizdə keçirin.

**BALIQLAR** - Ulduzlar bu gün əsas ixtiyarı öz əlinizə verəcək. Bu isə gözlənilən hadisələrin nəticəsini qərarlarınızdan asılı edəcək. Hər şey müvafiq olsa, nahardan sonra ovqatınız yüksələcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Fahişəyə pul əvəzinə soyutma yumurta təklif etdi, döyüldü



Zimbabvedə əxlaqsız qadın müştərisini döyüb. Buna səbəb isə kişinin ona pul əvəzinə soyutma yumurta təklif etməsi olub. Lenta.ru saytı yazıb ki, öncə 28 yaşlı Mozes Muşonqa icazəsiz qadının sinəsinə toxunub. Daha sonra isə cinsi əlaqə qarşılığında ona soyutma yumurta təklif edib. Bu təklif seks işçisini o qədər qəzəbləndirib ki, o, öncə Muşonqun üzünə güclü zərbə endirib, ardınca isə pivə butulkası ilə zərbələr endirib. Qadın polisə bildirib ki, bununla o gəncə həyatda mədəni olmaq dərsi keçib. Muşonq isə deyib ki, təklifinə sadəcə "yox" cavabı vermək yetərli idi.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750